**ADA UNİVERSİTETİ**

**TƏHSİL İNSTİTUTU**

**TƏLİM VƏ TƏDRİSİN TƏŞKİLİ VƏ METODİKASI**

Tələbə: Turanə Məmmədova

Elmi rəhbər: Dr. Könül Abaslı

Tezis mövzusu: **Məktəb xoşbəxtliyi: şagirdlər bu barədə nə düşünürlər?**

Aprel, 2025

# Minnətdarlıq

Bu tədqiqat işinin hər mərhələsində dəyərli tövsiyələri, dəstəyi və zəngin elmi bilikləri ilə yol göstərmiş dəyərli elmi rəhbərim Dr. Könül xanım Abaslıya, tədqiqat layihəsinin inkişaf etdirilməsi və akademik yazı istiqamətində göstərdikləri dəstəyə görə Abbas Abbasov, Gülnar xanım Cəfərovaya, magistratura proqramı çərçivəsində peşəkar inkişafımızı hər zaman diqqət mərkəzində saxlayan, bu istiqamətdə planlı və məqsədyönlü fəaliyyətləri ilə bizə dəyərli töhfələr verən hörmətli dekanımız Ülviyyə xanım Mikayılovaya, tədqiqatın məlumat toplama mərhələsində dəstək olan əziz dostlarım Leyla Məmmədova, Mirvari Salmanova və Lamiyə Məmmədovaya, eləcə də hər zaman mənə dəstək olan ailəmə sonsuz təşəkkürümü bildirirəm.

## Mündəricat

Minnətdarlıq ........ 2
Xülasə ........ 4
Giriş ........ 5
Nəzəri Çərçivə ........ 8
Xoşbəxtlik anlayışı ........ 8
Xoşbəxt məktəb ........ 11
Xoşbəxt şagird ........ 12
Pozitiv öyrənmə mühiti ........ 14
Qlobal Xoşbəxt Məktəblər Çərçivəsi ........ 18
Ədəbiyyat icmalı ........ 20
Metodologiya ........ 26
Metod ........ 26
İştirakçılar ........ 27
Data toplama aləti ........ 28
Datanın toplanması ........ 28
Data analizi ........ 29
Nəticə ........ 30
Kəmiyyət datasının təhlil nəticələri ........ 30
Keyfiyyət datasının təhlil nəticəsi ........ 33
Müzakirə ........ 53
Tövsiyələr ........ 63
Məhdudiyyətlər ........ 65
Ədəbiyyat siyahısı ........ 66
ƏLAVƏLƏR (şagird cavablarından nümunələr) ........ 75

# Xülasə

Bu tədqiqatın məqsədi məktəb xoşbəxtliyinə təsir edən amilləri şagirdlərin perspektivindən araşdırmaqdır. Tədqiqat 2024-2025-ci tədris ilinin ikinci yarımilində Qazax-Tovuz Regional Təhsil İdarəsinin əhatə dairəsində fəaliyyət göstərən iki ümumtəhsil məktəbində həyata keçirilmişdir. 433 şagirdin iştirak etdiyi tədqiqatda data toplamaq üçün “UNESCO Xoşbəxt Məktəblər Çərçivəsi”ndən istifadə edilmişdir. Tədqiqat nəticələri şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayışlarının yüksək səviyyədə olduğunu göstərmişdir. Bundan əlavə, şagird qavrayışlarının cins dəyişəninə görə fərqlənmədiyi, oxuduğu sinif və məktəbin yerləşdiyi ərazi dəyişəninə görə isə qruplar arasında statistik olaraq əhəmiyyətli fərqliliklərin olduğu müşahidə olunmuşdur. Tədqiqat nəticələri göstərmişdir ki, şagirdlərin sinif səviyyəsi yüksəldikcə onların xoşbəxtlik səviyyəsi azalır. Həmçinin, şəhər məktəblərində təhsil alan şagirdlərin xoşbəxtliklə bağlı qavrayışlarının kənd məktəblərində təhsil alanlara nisbətdə daha aşağı olduğu müşahidə olunmuşdur. Bundan əlavə, açıq tipli suallara verilən cavablar “UNESCO Xoşbəxt Məktəblər Çərçivəsi”nə uyğun olaraq təsnif olunmuş və müvafiq kateqoriyalarda yerləşdirilmişdir. Şagirdləri məktəbdə ən çox xoşbəxt edən səbəblər arasında sinif yoldaşları ilə vaxt keçirmək, müəllimləri tərəfindən xoş rəftar görmək, dostları ilə ünsiyyətdə olmaq kimi faktorlar üstünlük təşkil etdiyi halda, ən çox məyus edən səbəblər arasında isə uşaqların bir-biri ilə kobud rəftarı, bullinq halları və müəllimlərin uşaqlara qarşı nəzakətsiz davranışları, ayrı-seçkilik etmələri kimi faktorlar yer almışdır. Həmçinin, şagirdlərin xoşbəxt məktəbin xüsusiyyətlərinə dair düşüncələri arasında müəllimlərin və şagirdlərin bir-biriləri ilə mehriban, səmimi və nəzakətli olduğu və bir-birlərinə dəstək olduğu məktəb, dərslərin əyləncəli keçirildiyi və hər kəsin iştirakının təmin olunduğu dərslər, şagirdlərin asudə vaxtının səmərəli keçirilməsi ən çox vurğulanan xüsusiyyətlər olmuşdur. Son olaraq, məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən meyarlar ilə bağlı şagirdlər dərsdə müəllimlərin enerjili və pozitiv olması, şagirdlərlə mehriban və xoş rəftarı, oxuyub

öyrənmək əvəzinə praktik olaraq tətbiq edilən dərslər, oyunla tədris, həyatla inteqrasiya olunan tədris planları kimi faktorları qeyd etmişlər.

**Açar sözlər:** məktəb, xoşbəxt məktəb, şagird

## Giriş

Təhsil tarix boyu bütün insanlar üçün əsas vəzifə hesab edilmiş, cəmiyyətin formalaşmasında və tərəqqisində mühüm rol oynamışdır (Döş, 2013). "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun (2009) 4-cü maddəsində təhsilin əsas məqsədinə nəzər salanda aydın olur ki, təhsilalanlar təhsil sisteminin mərkəzi elementidir. Qeyd olunan məqsədə nail olmaq üçün nəzərə alınmalı olan əsas məqamlardan biri məhz təhsilalanların olduğu mühitdən razı qalmaları, sevmələri, təhlükəsiz hiss etmələri və xoşbəxt olmalarını təmin edən mühitin yaradılmasıdır. Təhsil sisteminin mühüm töhfəsi olan uşaqlar, ilk növbədə, valideynləri və yaxın ətrafı tərəfindən qeyri-formal təhsil alırlar. Daha sonra onlar formal təhsil və ictimai münasibətlər vasitəsilə inkişaf edərək, həyata hazırlaşırlar. Uşağın yaşadığı ilk təcrübələr, qarşılaşdığı problemlər, ətrafdakılarla qurulan münasibətlər bütün həyatı boyu onun davranışına, rəftarına təsir edir (Sapsağlam və digərləri, 2021). Şəxsiyyətin formalaşdırılması ilkin olaraq məktəbəqədər təhsil pilləsindən başlasa da, bu prosesdə əsas mərhələ ümumi təhsil pilləsini əhatə edir ki, bu da əsasən məktəblərdə həyata keçirilir. Məktəblərdə qazanılan təcrübələr fizioloji, psixoloji və sosial inkişaf və funksionallıq baxımından əhəmiyyətlidir. Bir şagird orta hesabla məktəbdə 6-7 saat vaxt keçirir və bu müddət günün ən məhsuldar vaxtıdır. Şagirdlərin günün əhəmiyyətli hissəsini keçirdiyi məktəblərdə özlərini rahat, təhlükəsiz və xoşbəxt hiss etmələri vacibdir. Təhsil sisteminin mərkəzi elementi şagird olduğu kimi, xoşbəxtlik də həyatın mərkəzindədir. Xoşbəxtliyin məktəbli uşaqların rifahında və motivasiyasında mühüm rola malik olduğuna, onların intellektinə, düşünmə qabiliyyətinə, yaradıcılığına və təhsil nailiyyətlərinə müsbət təsirinə geniş şəkildə inanılır (Datu

və digərləri, 2017; Oreopoulos 2007; Soleimani və Tebyanian 2011). Məktəbin əsas məqsədi təkcə şagirdin akademik uğuruna kömək etmək deyil, həmçinin şagirdə özünü təsdiq etməyə nail olmaqda kömək etmək, onda xoşbəxt və müstəqil həyat sürmək üçün bacarıqlar formalaşdırmaqdır (Bird və Markle, 2012; Cheon və Lim, 2020). Məktəbdə şagirdlər müxtəlif təcrübələr yaşayırlar. Hər bir şagirdin xoş və ya xoşagəlməz təcrübəsi olur (Weissberg və digərləri, 2003). Şagirdlər məktəbdə xoşbəxtdirlərsə, onların akademik uğurları artır və sosial bacarıqları, həmyaşıdları ilə münasibətləri və emosional uyğunlaşması güclənir (Bird və Markle, 2012). Təbiidir ki, şagirdlər məktəbdə tez-tez mənfi təsirlərə də məruz qalır, problemli davranışlara səbəb ola biləcək çoxsaylı problemlərlə üzləşirlər (Weissberg və digərləri, 2003). Göründüyü kimi təhsil sistemində "xoşbəxt şəxsiyyətlər yetişdirmək" məqsədinə nail olmaq həmişə asan olmaya bilər, çünki uşaqlara, onların xoşbəxtliyinə təsir edən bir çox amillər vardır (Mertoğlu, 2020). Beynəlxalq təcrübədə şagird xoşbəxtliyi ilə bağlı müəllim, şagird və valideyn qavrayışlarına görə bir çox tədqiqatlar aparılmışdır. Müşahidə olunan tədqiqatlarda şagird xoşbəxtliyinə təsir edən faktorlar ailə, ailənin gəliri, valideynlər, onların təhsili, bacı-qardaşları, həmyaşıdları ilə münasibətlər, dostları ilə münasibətlər (Badri və digərləri, 2018; Demir, 2020; Holder və Coleman, 2009; Kebersyukuran, 2022; Mohd Hashim və Mohd Zaharim, 2020; Toraman və digərləri, 2022), demoqrafik və şəxsiyyət dəyişənləri, psixoloji və fiziki xüsusiyyətlər (Holder və Coleman, 2008; Kebersyukuran, 2022; King və Datu, 2017; O'Rourke və Cooper, 2010; Shoshani və digərləri, 2016; Toraman və digərləri, 2022), akademik uğur (Certel və digərləri, 2015; Toraman və digərləri, 2022; Yar Yıldırım və Turaç, 2020), yaş (Butt və Beiser, 1987; Kebersyukuran, 2022; King və Datu, 2017; Ryff və Keyes, 1995; Shoshani və digərləri, 2016; Uusitalo-Malmivaara, 2014) dəyişənləri baxımından araşdırılmışdır. Beləliklə, uşaqlarda müsbət davranış dəyişikliyini hədəfləyən məktəblərdə şagirdlərin həyata müsbət inamı və gələcəyə ümidi olması üçün onların məktəb həyatında güclü bir xoşbəxtlik duyğusu olmalıdır (Döş, 2013; Sezer və Can, 2019). Buna görə də

xoşbəxtlik anlayışını uşaqların qavrayışlarına görə tədqiq etmək vacibdir (Fakhri və digərləri, 2022). Uşaqların fikirləri nəzərə alınmaqla, onların məktəbdə özlərini nə qədər xoşbəxt hiss etdiklərini öyrənmək daha faydalı olar. Bu baxımdan, respublikamızın şəhər və regionlarında fəaliyyət göstərən ümumtəhsil müəssisələrində şagirdlərin xoşbəxtliyi ilə bağlı bu istiqamətdə tədqiqatlar aparılmalı, mövcud vəziyyət öyrənilməli və təhlil edilməlidir.

**Tədqiqatın məqsədi:**

Qazax-Tovuz Regional Təhsil İdarəsinə tabe olan ümumtəhsil müəssisələrində təhsil alan şagirdlərin xoşbəxtlik səviyyəsini müəyyən etmək, şagirdlərin cinsi, oxuduğu sinif və təhsil aldığı məktəbin yerləşdiyi ərazi dəyişənlərinin onların xoşbəxtlik səviyyəsinə təsir imkanlarının öyrənilməsidir.

**Tədqiqatın əhəmiyyəti və elmi yeniliyi**

Elmi ədəbiyyatların təhlili zamanı beynəlxalq ədəbiyyatlarda mövzu ilə əlaqəli tədqiqatlar həyata keçirildiyi müşahidə olunmuşdur (Díaz, 2019; Elayyan, 2017; Eloff, 2008; Gramaxo və digərləri, 2023; Greco və Ison, 2014; López-Pérez və Fernández-Castilla, 2018; Mertoğlu, 2020; Muslikah və digərləri, 2024; Uusitalo-Malmivaara, 2014; Zarei 2013). Yerli ədəbiyyatlara nəzər yetirildiyi zaman Azərbaycanda ali məktəb tələbələrinin xoşbəxtliyi mövzusunda araşdırmalar həyata keçirilsə də (Aliyev və Agayeva, 2018; Aliyeva, 2024), şagird xoşbəxtliyi mövzusunda həyata keçirilən hər hansı bir akademik tədqiqat nəticəsinə rast gəlinməmişdir. Bu baxımdan ölkəmizdə bu mövzuda tədqiqatın aparılması və nəticələrin təhlil edilməsi bir yenilikdir. Tədqiqatın sonunda əldə ediləcək nəticələrin regionda orta məktəb şagirdlərinin xoşbəxtliyinə təsir edən amillər barədə məlumatlılıq (səviyyəsinin) artmasına, onların xoşbəxtlik səviyyəsinin öyrənilməsinə, eləcə də təhsil prosesi iştirakçılarının bu sahəyə diqqətinin artmasına və gələcəkdə bu də daha çox araşdırmaların aparılmasına töhfə verə biləcəyi təxmin edilir.

**Tədqiqat sualı:**

Şagirdlər məktəbdə özlərini nə qədər xoşbəxt hiss edirlər və onların xoşbəxtliyinə təsir edən amillər nələrdir?

**Alt sual:**

Region məktəblilərinin xoşbəxtliyinə dair şagird qavrayışları şagirdlərin cinsi, oxuduğu sinif və təhsil aldığı məktəbin yerləşdiyi ərazi dəyişəni baxımından statistik olaraq fərqlənirmi?

# Nəzəri Çərçivə

## Xoşbəxtlik anlayışı

Həyatın mərkəzində dayanan xoşbəxtlik insanların özünü yaxşı hiss etməsi, onların məmnuniyyət halıdır. Xoşbəxtlik anlayışı bəşər tarixinin əvvəlindən bəri hər bir insanın hiss etdiyi bir duyğu kimi qəbul edilmişdir. Xoşbəxtlik fəzilətlərin köməyi ilə əldə olunan yaxşı və gözəl bir həyat deməkdir (Başaran və Özçelik, 2020; Döş, 2013; Döş, 2023). Tarix boyu xoşbəxtlik haqqında səslənən fikirlər özünəməxsus olması ilə fərqlənmiş və bu barədə müxtəlif elm sahələrində fərqli yanaşmaların olduğu müəyyən edilmişdir. Əsasən, 1970-ci illərdən sonra xoşbəxtlik anlayışı ilə birbaşa maraqlanmağa başlayan psixoloqlar, xoşbəxtliyi şəxsiyyət amili ilə əlaqələndirərkən, bioloqlar kimyəvi proseslərlə izah etmişlər. Filosoflar məsələyə əxlaqi cəhətdən yanaşmış, sosioloqlar isə xoşbəxtliyi sosial şərtlərlə əlaqələndirmişlər (Başaran və Özçelik, 2020; Glatzer, 2000).

Xoşbəxtlik, ən geniş mənada subyektiv bir anlayış olaraq qəbul edilmişdir. Bəşər tarixinin ilk dövrlərindən etibarən hər bir fərd və ya cəmiyyət öz təcrübələri əsasında xoşbəxtliyi yaşamış və buna özünə məxsus şəkildə izah vermişlər. Anlayış olaraq qeyri-müəyyən hesab edilən xoşbəxtliyi ifadə etməkdə bir çox çətinliklər yaşanmışdır. Lakin bütün bu çətinliklərə

baxmayaraq, elm adamları, Aristotelin nəzəriyyəsini bu anlayışın tarixi başlanğıcı olaraq qəbul edilməsində həmfikir olmuşlar (Benditt, 1974; Fidan, 2020; White, 2006). Belə ki, xoşbəxtlik haqqında düşüncələr, onun mənbəyinin tədqiqinə maraq qədim zamanlardan başlamış, hətta, Qədim Yunanıstan dövründən insanlar daim xoşbəxtlik axtarışında olmuşlar. Xoşbəxtlik haqqında fikirləri ilklərdən sayılan Aristotelin bu mövzuda əsas yanaşması, xoşbəxtliyin insan həyatında arzu olunan və əldə edilə bilən istək olmasıdır. İnsan həyatının əsas məqsədi sayılan və ömür boyu davam edən xoşbəxtlik - ruhun öz təbiətinə, yəni ağıl və əxlaqi kamilliyə uyğun şəkildə fəaliyyət göstərməsidir. Beləliklə, Aristoteldən başlayaraq, təxminən iki min ildir xoşbəxtlik anlayışı müzakirə edilməkdədir (Büyükdüvenci, 1993; Demir, 2020; Dös, 2023; Luzuriaga və digərləri, 2017; Thoilliez, 2011). Xoşbəxtliyin öyrənilməsində iki əsas yanaşma mövcud olmuşdur: birincisi, anlayışın mənasını anlamağa çalışmaq, ikincisi isə insanlardan onları nəyin xoşbəxt etdiyini soruşmaqdır. Beynəlxalq elmi ictimaiyyət arasında xoşbəxtliyi mümkün edən şərtlərin öyrənilməsinə maraq 1980-ci illərdən etibarən (1980–1989-cu illər; 1990–1999-cu illər; 2000–2009-cu illər) fərqli illər aralığında artmışdır (Thoilliez, 2011; Ünüvar və digərləri, 2015). Xoşbəxtlik anlayışı ilə bağlı Amerika Psixoloji Assosiasiyasının saytında (2016) axtarış nəticələri də göstərmişdir ki, 21-ci əsrin əvvəllərindən etibarən sosial və humanitar elmlər sahəsində mövzuya maraq daha da artmışdır (Luzuriaga və digərləri, 2017).

Müsbət psixologiyanın əsas mövzularından biri kimi xoşbəxtlik anlayışı tədqiqat ədəbiyyatında araşdırma obyekti olduğu vaxtdan etibarən tez-tez subyektiv rifah termini ilə ifadə olunmağa başlanmışdır. Bu baxımdan mənbələrə nəzər saldıqda, araşdırmaların əsasən subyektiv rifah və ya həyatdan məmnunluq tədqiqatları kimi təsnif olunduğu müşahidə olunmuşdur. Bununla yanaşı qeyd etmək olar ki, son illərdə xoşbəxtlik mövzusunda aparılan araşdırmaların intensivliyində nəzərəçarpan bir artım da izlənilməkdədir (Badri və digərləri, 2018; Demir, 2020; Diener, 1984; Diener və digərləri., 1999; Diener, 2000; Eloff, 2008; Ivens, 2007; López-Pérez və

digərləri, 2016; Luzuriaga və digərləri, 2017; Lyubomirsky və digərləri, 2005; Noddings, 2003; Uusitalo-Malmivaara, 2012).

Xoşbəxtlik insanların həyatdan məmnunluqlarını mühakimə etməsinə əsaslanan, müsbət hisslər və emosiyalarla xarakterizə olunan rifah halı kimi, onun həyat keyfiyyətini yaxşılaşdırmaq üçün edilməsi lazım olan müsbət fəaliyyətləri ilə xarakterizə olunan bir vəziyyətdir (Agustina, 2018; Diener, 2000; Fakhri və digərləri, 2022). "Zövq", "sağlam olmaq", "həyatdan məmnunluq", "subyektiv rifah" və "müsbət hisslər yaşamaq" kimi anlayışlarla əlaqəli olan xoşəxtlik həmişə insanların həyatda sahib olmaq istədiyi şeydir (Mertoğlu, 2020; Quan və digərləri, 2023). Xoşbəxtlik özünü yaxşı hiss etmək, həyatdan zövq almaq, sevincli olmaq hissi ilə səciyyələnən müsbət emosiya, sağlam yaşamaq, azad olmaq, sevilmək, anı dəyərləndirmək kimi həyatı müsbət şəkildə qiymətləndirə bilmədir (Fakhri və digərləri, 2022; Giacomoni və digərləri, 2014; Yalçın və digərləri, 2022). Xoşbəxtlik, insanların həyat şəraitindən və onların fiziki, emosional və psixoloji baxımdan bu vəziyyəti necə qiymətləndirmələrinə bağlı olaraq subyektiv bir haldır (Luzuriaga və digərləri, 2017). Xoşbəxtlik, insanın özünü inkişaf etdirərək həyat keyfiyyətini artırmağa, eyni zamanda həm fiziki, həm də zehni rahatlığını təmin etməyə çalışdığı, sakit həyat tərzi ilə əlaqəli olan bir hissiyyat və ruh halıdır.  Belə ki, həyatında harmoniya və daxili aləmində rahatlığı tapan insanlar həm özlərinə, həm də ətrafdakılara dəyər verərək, əslində hər kəsin arzusunda olduğu xoşbəxtliyə nail olmağa çalışırlar (Kebersyukuran, 2022). Xoşbəxtlik, habelə xoş öyrənmə mühiti yaradır. (Chechi və digərləri, 2024). Xoşbəxtlik və öyrənmə bir-biri ilə əlaqəli olan anlayışlardır. Bu anlayışlar arasındakı əlaqə xoşbəxtliyin öyrədilə və öyrənilə bilən olduğunu göstərir (Fidan, 2023; Salmon, 2016). Təhsilin təməl vahidlərindən olan məktəblər üçün xoşbəxtlik mühüm meyar kimi görünür. Məktəblər xoşbəxtliyi keyfiyyətli öyrənmə üçün təşviq etməkdə "dayanıqlı başlanğıc"a malikdirlər (UNESCO, 2024).

## Xoşbəxt məktəb

Son dövrlərdə xoşbəxtlik yalnız fərdlərlə bağlı deyil, həm də müəssisələrlə, məktəblərlə və ölkələrlə əlaqəli bir anlayışa çevrilmişdir (Quan və digərləri, 2023). Hər bir ölkənin təhsilinin əsasını onun məktəbləri təşkil edir. Məktəblər cəmiyyətləri insanlıq və yaradıcılıq məqsədlərinə yönləndirən təməl sütunlardır. Xoşbəxt məktəblərin qurulması tədris və təlimin keyfiyyətinin artırılmasında və təhsilin inkişafına töhfə verməkdə mühüm rol oynayır. (Tâm, 2021). "Xoşbəxt məktəb" konsepti beynəlxalq təhsil sahəsində getdikcə daha çox önəm kəsb etmiş və geniş yayılmışdır (Quan və digərləri, 2023). Xoşbəxt məktəb, şagirdlərə xoşbəxt öyrənmə mühiti təqdim edən, bu mühitdə akademik uğurlarına ilham verərək, onların motivasiyasını, yaradıcılığını artırmağa kömək edən məktəbdir. Xoşbəxt məktəb şagirdlərin və müəllimlərin təhlükəsiz, mehriban bir mühitdə öyrənib, öyrədə biləcəyi, bütün tərəflərin bir-birini sevdiyi, dəyər verdiyi, hörmət etdiyi, rəğbət bəslədiyi və paylaşdığı bir yerdir (Tâm, 2021). Xoşbəxt məktəb rəhbərlik, müəllimlər və şagirdlərin yeniliklərə açıq olduğu, şagirdlərin həyatda lazım olan bacarıqları əldə etdiyi, eyni zamanda, şagirdlərin öyrənmə prosesindən məmnun olduqları mühitdir (Gramaxo və digərləri, 2023). Tədris və təlim prosesində müəllimlər, şagirdlər və valideynlər özlərini xoşbəxt hiss etdikdə, məktəbdə ideal təhsil mühiti olur, burada sevgi və hörmət hər gün böyüyür və inkişaf edir. Xoşbəxt məktəbdə tədris yalnız şagirdlərin ehtiyaclarını qarşılamaq deyil, həm də onların potensialını, xüsusilə həvəs, öyrənmə, fiziki və əqli sağlamlıq kimi sahələrdə maksimum dərəcədə inkişaf etmələrini dəstəkləyən bir mühitdir. Çünki şagirdlərinin rifahını ön planda tutan məktəblər daha yaxşı nəticələr əldə edir, daha yaxşı akademik göstəricilərə sahib olurlar və gələcəkdə daha çox uğur qazanırlar (Quan və digərləri, 2023). Xoşbəxt məktəblər şəxsi rifahı ön planda tutaraq, yalnız akademik performansı deyil, sevinc və ömür boyu öyrənmə sevgisini inkişaf etdirərək, şagirdlərin öyrənməyə marağını artırmağa çalışır (Gramaxo və digərləri, 2023). Şagirdlərin öyrənmə sevincini hiss edə biləcəkləri yerə çevrilməsi üçün məktəbin ilk növbədə təhsil proqramının hazırlaması zəruri addımlardan biridir. Hansı ki, sözügedən təhsil proqramı şagirdləri

anlaşma, dözümlülük, bərabərlik və dostluq ruhunda azad cəmiyyətdə səmərəli iştiraka hazırlamalıdır (Calp, 2020; Soleimani və Tebyanian, 2011). Sevgi dolu və xoşbəxt mühit yaratmağı prioritet saymaqla, məktəb rəhbərliyi, müəllimlər, valideynlər təhsil imkanlarını bərabərləşdirə, sosial-iqtisadi bərabərsizlikləri azalda və sosial mobilliyi təmin edə bilərlər (Gramaxo və digərləri, 2023). Belə ki, şagirdlərə həyati bacarıqların öyrədilməsi, onların fərqli fəaliyyətlərə cəlb olunması, müasir avadanlıqlarla təchiz olunmuş sinif mühitinin, o cümlədən, laboratoriya və emalatxana şəraitində nəzəri biliklərini tətbiq etməyə, praktiki bacarıqlarını inkişaf etdirməyə və yaradıcı düşüncələrini təkmilləşdirməyə kömək edən mühitin yaradılması, o cümlədən, innovasiyanın təşviq edilməsi xoşbəxt məktəbin zəruri komponentlərindəndir (Talebzadeh və Samkan, 2011). Xoşbəxt məktəb, eyni zamanda şagirdlərin əylənə bildikləri, maraqlı fəaliyyətlərə cəlb olunduqları, məktəbdə və məktəbdənkənar öyrənmə mühitlərində müəllimləri tərəfindən dəstək, müsbət münasibət və s. faktorlar sayəsində onların sosiallaşmasına şərait yaradan təhsil müəssisəsidir (Yalçın və digərləri, 2022). Bundan başqa, məktəbin fiziki şəraitinin (yeni texnoloji tədris alətləri və avadanlıqlarla təchiz olunmuş sinif otaqları, şagirdlərin fiziki fəaliyyətlərini həyata keçirə biləcəkləri idman zalları, onların mənəvi və əqli yorğunluğunu aradan qaldıran rəsm, musiqi və s. otaqlar, təmiz və geniş həyətyanı sahəsi) estetik cəhətdən cəlbedici, həm də rahat və istifadəyə əlverişli olması da xoşbəxt məktəbin göstəricilərindən hesab olunur (Döş, 2013; Soleimani və Tebyanian, 2011). Beləliklə, xoşbəxt məktəb şəxsiyyət, cəmiyyət, ətraf mühit, uğur və maraqlı tərəflərə görə formalaşır. Çünki uşaqlar ətraflarından diqqət gördükdə, sevildikdə, ictimai fəaliyyətlərdə iştirakına olan dəstəyi hiss etdikdə və uğur qazandıqda özlərini daha xoşbəxt hiss edə bilərlər (Yalçın və digərləri, 2022).

## Xoşbəxt şagird

Xoşbəxt şagird, öyrənmə prosesində və akademik çətinliklərlə mübarizədə ətrafındakılardan müsbət reaksiya gözləyən, həmçinin qarşılaşdığı çətinliklərə qarşı müsbət

yanaşma nümayiş etdirən, müsbət ruh halı ilə akademik gözləntiləri idarə edə bilən şəxsdir. Bu da şagirdin yüksək akademik nəticələr əldə etməsinə və ümumi rifahına müsbət təsir göstərir, ən əsası da akademik performansına maneə olan stressi azaldır (Agustina, 2018; Chechi və digərləri, 2024). Xoş mühit yaratmaq, stressi azaltmaq və ya öyrənmə zamanı şagirdləri daha məmnun edən elementlərdən (musiqilər, interaktiv oyunlar, mükafatlandırmalar və s.) istifadə etmək şagird funksionallığını dəstəkləyir (Fidan, 2023). Öyrənmə prosesində özünü xoşbəxt, təhlükəsiz, evdəki kimi rahat hiss etmək çox əhəmiyyətlidir. Çünki bu duyğular şagirddə öyrənməyə olan motivasiyanı artıraraq, daha məhsuldar və əyləncəli bir təhsil təcrübəsi əldə etməyə kömək edir (Agustina, 2018; Calp, 2020). Öyrənmə məkanları olan sinif otaqları şagirdlərin gələcəyini formalaşdırmağa şərait yaradır. Bu məkanda motivasiyaedici, qarşılıqlı hörmət, etibar və emapatiyanın üstünlük təşkil etdiyi müsbət öyrənmə mühitinin yaradılması öyrənmə prosesində böyük əhəmiyyət kəsb edir (Fidan, 2023). Yalnız koqnitiv bacarıqların deyil, emosional təcrübələrin və sosial münasibətlərin də nəzərə alındığı öyrənmə mühiti şagirdləri xoşbəxt edir. Şagirdlərə görə məktəblərdə daha çox təmin edilməli olan öyrənmə mühiti şagird mərkəzli təhsil proqramlarının tələblərinə uyğun təşkil olunmalıdır (Göksoy, 2017). Məhz xoşbəxt şagird, onun ehtiyaclarına, maraqlarına və bacarıqlarına uyğun təşkil olunmuş mühitdən zövq ala bilən şəxsdir. Xüsusən, xoşbəxt şagird məktəbdə sosial fəaliyyətlərin planlaşdırılmasına can atır və bundan məmnunluq hissi nümayiş etdirir. Sosial fəaliyyətlərin bəxş etdiyi müsbət əhval-ruhiyyə dolayısı ilə akademik müvəffəqiyyətə də təsir göstərir. Sevincli olan şagirdlərin sinif yoldaşları və müəllimləri ilə müsbət münasibət qurma ehtimalı daha yüksəkdir. Bu əlaqələr, şagirdlərin məktəbə bağlılıq hissini artırır və onların fikirlərini bölüşə biləcəyi, yardım ala biləcəyi və birgə işləyə biləcəyi dəstəkləyici bir şəbəkənin qurulmasına kömək edir. Bununla xoşbəxt şagird, daha çox sinif fəaliyyətlərində iştirak edir, suallar verir, maraqları sayəsində materialı daha səmərəli mənimsəmiş olur (Calp, 2020; Chechi və digərləri, 2024). Xoşbəxt şagird, həmçinin məktəb

qaydalarına əməl edir, dərs oxuyur, ev tapşırıqlarını yerinə yetirir və öyrənmə prosesində daha effektiv performans nümayiş etdirir. Ondan nə gözlənildiyini və məsuliyyətlərini bilir və ona uyğun hərəkət edir ki, bu da bütün sosial sistem üçün faydalıdır (Dös, 2013; Luzuriaga və digərləri, 2017). Çünki, şagird xoşbəxtiyi təkcə fərdi deyil, həm də sosial hadisədir. Şagirdlərin əksəriyyətinin rifah səviyyəsinin yüksək olduğu siniflərdə müsbət sinif iqlimi, əksinə rifah səviyyəsinin aşağı olduğu siniflərdə isə daha mənfi sinif iqlimi müşahidə olunur (King və Datu, 2017). Şəxslərarası münasibətlərdə uğur anlayışı xoşbəxt şagirdin simasında xoşbəxt məktəbi hədəfləyir. Uşaqlar müəllimlərin və ya sinif yoldaşlarının onlara qarşı fiziki zorakılıq göstərməsini istəmirlər. Onlar həmyaşıdları ilə yaxşı münasibət qurmaq, üstəlik, yaxşı dostluq etmək istəyirlər. Məktəbdə istər məktəb rəhbəri, istər müəllimləri, istərsə də həmyaşıdaları ilə münasibətlər uşaqların şəxsi inkişafı üçün lazım olan sosial bacarıqların təşviqində böyük əhəmiyyət kəsb edir (Calp, 2020; Greco və Ison, 2014). Bundan əlavə, şagirdlər üçün başqa bir xoşbəxtlik mənbəyi onların asudə vaxtlarını səmərəli keçirmələri, oyunlar oynamaq, tənəffüs zəngləri, əyləncəli dərslər və digər oyunla bağlı komponentlərdir (Calp, 2020; Greco və Ison, 2014; Fidan, 2020; Fidan, 2023). Aydındır ki, məktəblərdə keçirilən əyləncəli fəaliyyətlər şagirdləri sevindirir (Giacomoni və digərləri, 2014; Sezer və Can, 2018). Beləliklə, xoşbəxt şagird, daha yaxşı öyrənmə, daha çox məşğulluq, daha pozitiv münasibət, daha konstruktiv rəy və daha optimal fəaliyyət nəticəsində daha motivasiyalı olur.  (King və Datu, 2017).

## Pozitiv öyrənmə mühiti

Öyrənmə prosesində xoşbəxtlik böyük əhəmiyyət daşıyır (Muslikah və digərləri, 2024). Xoşbəxtlik və öyrənmə bir-birini tamamlayan və qarşılıqlı şəkildə güclənən iki anlayışdır. Bu anlayışlar arasında əlaqə mövcuddur ki, bu əlaqə hər iki prosesin bir-birini dəstəkləməsi ilə nəticələnir. Yəni xoşbəxtlik insanın daha yaradıcı olmasına, öyrənmə isə insanın yeni təcrübələrdən zövq almasına kömək edir. Təhsilin əsas məqsədi insanın ümumi psixoloji

vəziyyətini yaxşılaşdırmaq, onun daxili ruh halını yüksəltmək və daha müsbət bir əhval-ruhiyyəyə sahib olmasını təmin etməkdir. Məktəblər rifah təşəbbüslərini həyata keçirmək üçün üçün əla yerdir (Seligman və digərləri, 2009). Uşaqların müsbət əhval-ruhiyyədə olmaları üçün onların müxtəlif fəaliyyətlərdə iştirakını təmin etmək məktəbdə müəllimlər, idarəçilər və digər işçilərinin, o cümlədən öyrənənlərin də uyğunlaşdığı sağlam mühiti təmin edir. Bu tarazlıq nəinki şagirdlərin inkişafında, həmçinin məktəbin ümumi atmosferinin yaxşılaşmasında mühüm rol oynayır (Muslikah və digərləri, 2024). Sezer və Cana (2020) görə pozitiv öyrənmə mühiti şagirdlərin bacarıqlarını ortaya çıxarır və məhsuldar öyrənmə prosesini dəstəkləyir. Belə ki, şən və motivasiyalı şagirdlər sinif fəaliyyətlərində daha fəaldırlar, daha yaradıcıdırlar, məsələləri müxtəlif aspektlərdən qiymətləndirə bilirlər və maraqları sayəsində daha yaxşı öyrənirlər. Ən əsas da öyrənməyə mənfi təsir göstərən stressdən uzaq olurlar. Bu, yalnız şagirdlərin akademik göstəricilərini yaxşılaşdırmır, həm də onların qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmək üçün sağlam mübarizə üsulları nümayiş etdirmələrinə imkan verir. Əlavə olaraq, pozitiv öyrənmə mühitində tərəflərin bir-birləri ilə daha yaxşı münasibət qurma ehtimalı da yüksəkdir (Chechi və digərləri, 2024). Sezer və Can (2020) məktəb rəhbərləri, müəllim və şagirdlərin rəylərinə əsasən sinifdə mühitin pozitiv olmasına təsir edən əsas amilləri tədqiq etdikləri araşdırmalarında pozitiv öyrənmə mühitinin var olmasına səbəb olan amillər içərisində münasibət anlayışına xüsusi diqqət çəkmişlər. Qeyd olunduğu kimi, məktəbin maddi-texniki bazası, avadanlıqlarla təchizatı xoşbəxt öyrənmə mühitinin yaradılması üçün kifayət deyil. Orada tərəflər (müəllim-müəllim, müəllim-şagird, müəllim-valideyn, məktəb rəhbəri-müəllim və s.) arasında ünsiyyət və əməkdaşlıq, həmrəylik, tolerant yanaşma, sosial fəaliyyətlər və s. hər kəsdə məktəbə aidiyyət hissini artırır və birlikdə işləməyə imkan verən güclü sosial şəbəkələr formalaşdırır. Beləliklə, sözügedən tərəflərin (müəllimlər, məktəb rəhbərləri, valideynlər və şagirdlər) də rəylərinə əsasən pozitiv öyrənmə mühitinin təşkili yalnız müəllimdən asılı deyil, məktəbin ümumi işidir. Bunun üçün araşdırmada,

- məktəb rəhbərliyinin ədalətli və obyektiv olması, qərarların qəbulu prosesində qərəzsizlik nümayiş etdirməsi, şagirdlərin xoşbəxtliyi üçün sosial və fiziki cəhətdən uyğun mühitə üstünlük verməsi;
- müəllimlərin peşəkar səriştəyə malik olması, peşəsini sevməsi, şagird mərkəzli metodun tətbiqini prioritet hesab etməsi;
- valideynlərin müəllimlərlə birgə övladlarının bacarıq və qabiliyyətlərinə, istedadına uyğun, onları sevindirən, özlərini dəyərli hiss etdirən və ehtiyaclarına uyğun fəaliyyətlərə üstünlük vermələri;
- şagirdlərin təhlükəsiz və pozitiv mühitə, məktəb-valideyn əməkdaşlığına, ədalətli məktəb idarəçiliyi, müəllimlərin peşəkar səriştəsi və kifayət qədər ictimai fəaliyyətlərdə iştiraka üstünlük vermələri öz əksini tapmışdır.

Sinifdə şagirdlərin öyrənmədən məmnun qalmasına səbəb olan amillər arasında şagird mərkəzli tədrisin dəstəkləndiyi daha bir araşdırma Nguyen və digərlərinə (2024) məxsusdur. Tədqiqatda sinifdə xoşbəxt öyrənmə mühiti yaratmaq üçün məktəb mühitində xoşbəxtliyin uzunmüddətli təsirlərinin necə olduğu vurğulanmış (Nguyen və digərləri, 2024), öyrənməni daha maraqlı etmək üçün effektiv tədris metodlarının, xüsusən oyun elementlərinin sinif mühitinə daxil edilməsi yer almışdır (Yalçın və digərləri, 2022). Bununla yanaşı, qrup fəaliyyətləri və komanda işinin təşviq edilməsi, ümumi məktəb iqlimini yaxşılaşdırmaq üçün sinifdə müsbət psixoloji proqramların tətbiq edilməsi şagirdlərin fəallığı və yaradıcılığını stimullaşdırır. Qeyd olunanlara əlavə olaraq, şagirdlərin öyrənmədən həzz alacaqları əyləncəli dərslərin təşkil olunması üçün ilk növbədə təhsil proqramlarından başlanmalı mesajı proqramların yenidən işlənməsinə ehtiyacın olduğuna gətirib çıxarır (Calp, 2020; Seligman və digərləri, 2009). Təhsil proqramı şagirdlərdə əsasən problem həlletmə (qarşılaşdıqları problem qarşısında çevik düşünmə, çıxış yolları düşünməklə uyğun variantı seçmə) bacarığını formalaşdırmağa fokuslanmalı, şagirdlərdə

ümidsizliyi əhəmiyyətli dərəcədə azaltmalı, əksinə optimizmi artırmalıdır. Seligman və digərləri (2009) yenilənmiş təhsil proqramına riayət olunduğu auditoriyalarda şagirdlər arasında depressiya simptomlarının əhəmiyyətli dərəcədə azaldığını və onların özlərini pozitiv hiss etdiklərini müəyyən etmişlər. Proqram çərçivəsində şagirdlərə tövsiyə olunan daha bir nümunə onların məktəbdə hər gün qarşılaşdıqları üç müsbət hadisəni həftəlik olaraq yazmalarının təşviq edilməsi olmuşdur. Sadalanan hər bir müsbət hadisə şagirdlərdə onları güclü tərəflərinin olduğuna inandıracaq, çətinliklərin öhdəsindən gəlmək üçün həmin güclü tərəflərdən istifadə etməyə və özünü idarə etməyə kömək edəcəkdir. Beləliklə, araşdırmada da qeyd olunduğu kimi təhsil proqramı sinifdə pozitiv öyrənmənin təmin olunması ilə bağlı hesabatlılığı inkişaf etdirəcəkdir. Şagirdlərin sinifdə effektiv ünsiyyət və qarşılıqlı anlaşma ilə xarakterizə olunan öyrənmə prosesində, akademik çətinliklərin öhdəsindən gələ bilməsi üçün müsbət emosiyaların olmasına ehtiyacın oluğunu Agustinanın (2018) tədqiqatında rast gəlinmişdir. Öyrənərkən xoşbəxtlik hissi, maraq, sevinc və sinifdə olmaqdan zövq almaq kimi müsbət emosiyalar, öyrənmədə xoşbəxtliyə, pozitiv öyrənmə mühitinə nail olmaq üçün çox vacibdir. Bunun üçün müəllimlər şagirdlərin emosional ehtiyaclarını dəstəkləyərək və sinifdə oturuş qaydalarını tənzimləyərək tədris prosesini daha effektiv və səmərəli hala gətirə bilərlər ki, bu da sinifdəki ümumi atmosferi yaxşılaşdırır və hər kəsin diqqətini dərslərə yönəldir. Beləliklə, şagird xoşbəxtliyinə ən çox təsir edən aspektlər müsbət emosiya, məşğulluq və nailiyyət aspektləri olaraq, ümumiləşdirilmişdir. Şagirdlərin məktəbdəki xoşbəxtlik səviyyələrini valideynlərinin nöqteyi-nəzərindən araşdıran Gramaxo və digərləri (2023) üçün xoşbəxt məktəbin ən vacib xüsusiyyətlərindən biri isti və mehriban öyrənmə mühitinin təmin edilməsidir. Bu mühiti pozitiv edən, müəllimin şagirdlərlə mehriban münasibəti, şagirdlərin maraq və ehtiyaclarına uyğun tədris strategiyaları və dərsdənkənar fəaliyyətlərlə zəngin olan öyrənmə azadlığının təmin olunması və öyrənmənin əyləncəli və təhlükəsiz mühitdə təşkil edilməsidir. Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)

tərəfindən 2016-cı ildə hazırlanmış Xoşbəxt Məktəblər konsepsiyasının Portuqaliya kontekstində aktual olub-olmadığını yoxlayan sözügedən araşdırmada valideynlər, "İnsanlar" və "Proses" kateqoriyalarını digər kateqoriya olan "Məkan"a nisbətdə daha aktual hesab etmişlər (Salmon, 2016).

## Qlobal Xoşbəxt Məktəblər Çərçivəsi

"Xoşbəxt məktəb" termini son illərdə təhsil sahəsində getdikcə daha çox istifadə olunan, əhəmiyyətli bir anlayışdır. Şagirdləri bilik və bacarıqlarla təchiz etməklə yanaşı, xoşbəxt məktəbi necə yaratmaq təhsil sektorunun əsas diqqət mərkəzindədir (Quan və digərləri, 2023). Artan həyat stressi, ətraf mühitlə bağlı narahatlıqlar, qeyri-müəyyən dəyişikliklərin baş verdiyi bir zamanda məktəblər sadəcə bilik verməklə kifayətlənməməli, insanlara bu çətinliklərin öhdəsindən gəlməkdə kömək etməlidir. Bu baxımdan təhsil sistemlərindən gözləntilər günü-gündən artmaqdadır (Salmon, 2016). Odur ki, 21-ci əsr bacarıqlarına uyğun, güclü və xoşbəxt insan yetişdirmək istəyiriksə, məktəbləri emosional və intellektual cəhətdən zəngin, şagirdlərin rifahını və motivasiyasını önə çəkən yerlərə çevirməliyik (UNESCO, 2024). Müvafiq olaraq, UNESCO təhsil vasitəsilə sülhün təşviq edilməsini öz mandatı kimi qəbul etmişdir. Bu baxımdan, öyrənmənin sosial və emosional sahələrinin vacibliyini nəzərə alaraq, 2014-cü ildə Xoşbəxt Məktəblər Layihəsinə başlamışdır. Layihə UNESCO-nun Asiya və Sakit Okean Regional Bürosu (UNESCO Banqkok) şagirdlərinin rifahını və hərtərəfli inkişafını artırmaq məqsədi ilə məktəblərdə xoşbəxtliyin əhəmiyyətini təbliğ etmək üçün hazırlanmışdır (Salmon, 2016). Sözügedən çərçivə sənədinə görə xoşbəxt məktəb müsbət insan münasibətlərinə, uyğun tədris və öyrənmə metodlarına, təhlükəsiz və mehriban öyrənmə mühitinə malik olmaqla "İnsanlar", "Proses" və "Məkan" adlı üç kateqoriyadan və 22 meyardan ibarət olmuşdur (Quan və digərləri, 2023). 2022-ci ildən isə UNESCO təşkilatı Xoşbəxt Məktəblər təşəbbüsünün qlobal miqyasını genişləndirməyə başlamış, çərçivə sənədinə yenidən baxış keçirərək, təkmilləşdirmişdir. Yeni

varianta “Prinsiplər” adlı dördüncü kateqoriya, 22 meyar isə 12 əsas meyarda yenidən təşkil edilərək, daxil edilmişdir. Belə ki, əvvəlki yanaşmada xoşbəxt məktəbləri qiymətləndirmək üçün 22 fərqli meyardan istifadə olunurdu. UNESCO bu meyarları qruplaşdıraraq və sistemləşdirərək, onları 12 əsas (yüksək səviyyəli) meyara çevirmişdir. Bununla da, təşəbbüsün daha sadə, aydın və tətbiq edilə bilən olması təmin edilmişdir. Qlobal Xoşbəxt Məktəblər adlı yeni çərçivə sənədi (bundan sonra, QXMÇ) təhsildə xoşbəxtliyin vacibliyini, habelə “xoşbəxtliyin” və “öyrənmənin” bir-birindən ayrılmaz olduğunu vurğulayan, beynəlxalq səviyyədə qəbul edilmiş istiqamətverici yanaşmadır. Sənəddə xoşbəxtlik, yəni şagirdin psixoloji rifahı, emosional balansı və ümumi həyat məmnuniyyəti öyrənmə prosesində çox mühüm rol oynayır. Çərçivə sənədinə daxil olan kateqoriyaların qısa təsviri aşağıda təqdim olunmuşdur:

1. “İnsanlar” - məktəbdə bütün tərəfləri (müəllimlər, şagirdlər, məktəb rəhbərləri, valideynlər, texniki heyət, təhsili idarəedən qurumlar, icma üzvləri və s.) bir araya gətirən, onların bir-birinə hörmət və anlayışla yanaşmasını təmin edən, bu yolla da ümumi rifahı və münasibətləri yaxşılaşdıran bir kateqoriyadır.
2. “Proses” – məktəbdə yalnız akademik biliklərin deyil, eyni zamanda şagirdlərin rifahı, xoşbəxtliyi nəzərə alınaraq təhsil sistemində dəyişikliklərin (tədris və öyrənmə təcrübələrini təkmilləşdirən fəaliyyətlər, tədris proqramları, qiymətləndirmə sistemlərindəki dəyişikliklər və s.) edilməsinin vacibliyini izah edən kateqoriyadır.
3. “Məkan” – məktəbi sağlam, təhlükəsiz və inklüziv icma mərkəzləri etmək üçün fiziki və rəqəmsal mühitini təkmilləşdirməyi hədəfləyən kateqoriyadır.
4. “Prinsiplər” - məktəb icmalarını birləşdirən fundamental dəyərləri vurğulayan, “İnsanlar”, “Proses” və “Məkan” kateqoriyalarının həyata keçirilməsinə imkan verən kateqoriyadır (UNESCO, 2024).

# Ədəbiyyat icmalı

Məktəb xoşbəxtliyi ilə bağlı ədəbiyyatlar araşdırılarkən mövzuya məktəb rəhbəri, müəllim, şagird və valideyn qavrayışlarından, eləcə də müxtəlif aspektlərdən yanaşmalar olduğu məlum olmuşdur. Aşağıda qeyd edilmiş ədəbiyyat icmalında məktəb xoşbəxtliyi ilə bağlı bu yanaşmalardan bir neçəsini özündə əks etdirən tədqiqatlar barədə məlumat verilmişdir.

Gramaxo və digərləri (2023) tədqiqatlarında UNESCO (2014) tərəfindən təqdim olunmuş "Xoşbəxt Məktəblər Sorğusu"ndan (Salmon, 2016) istifadə etməklə, şagirdlərin məktəbdəki xoşbəxtlik səviyyələrini elə şagirdlərin özlərinin nöqteyi-nəzərindən araşdırmışlar. Təhlil nəticəsində müəyyən olunmuşdur ki, Portuqaliyanın dövlət məktəblərində uşaqların əksəriyyəti məktəbdə özlərini orta dərəcədə xoşbəxt hiss etsələr də, yaş artdıqca onlarda xoşbəxtlik səviyyəsinin azaldığı və bəzi şagirdlərin məktəbdə özlərini məyus hiss etmələri aşkarlanmışdır. Bununla da, məktəbdə şagirdlərin xoşbəxtliyini təmin etmək üçün səlahiyyətli qurumlar tərəfindən, ilk növbədə isə məktəbin effektiv müdaxilələr etməsinin vacibliyi ön plana çəkilmişdir. Bundan başqa, UNESCO-nun (2016) xoşbəxt məktəblər üçün müəyyən etdiyi xüsusiyyətlərin Portuqaliyalı şagirdlər tərəfindən eyni şəkildə qiymətləndirilmədiyi məlum olmuşdur. Cari tədqiqatda xoşbəxtliyin, əsasən məktəbdəki dostluq əlaqələri, yaradıcı fəaliyyətlər, öyrənmə metodları və müəllimlərin münasibətləri ilə sıx bağlı olduğu, eyni zamanda müəllimlərin mənfi münasibətləri və zorakılıq kimi amillərin şagirdlərin xoşbəxtliyinə mənfi təsiri də müşahidə olunmuşdur.

Məktəbdə şagird xoşbəxtliyinə səbəb olan amillər arasında dostlarla münasibətləri əsas sayan daha bir araşdırma Uusitalo-Malmivaaraya (2014) məxsusdur. Finlandiyalı doqquzuncu sinif şagirdlərinin məktəblə bağlı xoşbəxtliyini araşdırmış Uusitalo-Malmivaara (2014) da şagirdlərdə yaş artdıqca xoşbəxtliyin azaldığı qənaətinə gəlmişdir. Belə ki, vaxtilə altıncı sinifdə oxuyarkən eyni mövzuda tədqiqatda iştirak etmiş şagirdlərin, doqquzuncu sinifdə də həmin

araşdırmaya cəlb olunması qeyd olunan müddətin azalan və ya artan templə izlənilməsi baxımından əhəmiyyətli məlumatlar almağa imkan vermişdir. Ancaq Gramaxo və digərlərinin (2023) araşdırmasından fərqli olaraq bu araşdırmada qızlar və oğlanlar arasında xoşbəxtliklə bağlı əhəmiyyətli fərqlərin, xüsusən, qızlarda xoşbəxtliyin azalmasının oğlanlara nisbətdə daha çox olduğu müəyyən olunmuşdur.

3-cü sinifdən 12-ci sinfə qədər təhsil səviyyələri üzrə şagirdlərin xoşbəxtlik səviyyəsinə təsir edən dəyişənləri müəyyən edən və yaş artdıqca şagirdlərin xoşbəxtlik səviyyəsində əhəmiyyətli dərəcədə azalmanın müşahidə olunduğu daha bir araşdırma nümunəsi Türkiyənin İzmir bölgəsində aparılmışdır. Mertoğlu (2020) tərəfindən aparılmış tədqiqatın təhlili şagirdlərin xoşbəxtlik səviyyələrinin müxtəlif amillərdən, o cümlədən ailə strukturu, maddi rifah vəziyyəti və valideynlərin məşğulluğu kimi faktorlardan asılı olaraq dəyişdiyi müşahidə olunmuşdur. Araşdırmada müəyyən edilmişdir ki, bəzi amillər, xüsusilə valideyn münasibətləri və ataların iş fəaliyyəti, şagirdlərin xoşbəxtlik səviyyələrində əhəmiyyətli fərqlərin yaranmasına səbəb olmuşdur. Sözügedən əhəmiyyətli fərqlərin, şagirdləri ən çox sevindirən, məsələn, "özünə güvənmək", "əylənmək", "məktəbi təhlükəsiz yer kimi hiss etmək" hallarının da öz növbəsində yuxarı siniflərə qalxdıqca azaldığı müəyyən olunmuşdur.

Şagirdlərin emosional rifahına təsir edən və onları xoşbəxt edən amillərdən özünə inam, şəxsi və məktəb mühitində təhlükəsizlik hissi, eləcə də dərsdənkənar fəaliyyətlərdən zövq alma kimi faktorlara Elayyanın (2017) da araşdırmasında rast gəlinmişdir. Birləşmiş Ərəb Əmirliklərinin Şarja şəhərində həyata keçirilmiş tədqiqata şagirdlərlə yanaşı, onların xoşbəxt olub-olmadığını öyrənmək və hansı amillərin onların xoşbəxtlik hisslərinə daha çox təsir etdiyini öyrənmək üçün məhz müəllimləri və məktəb rəhbərliyi də cəlb olunmuşdur. Həm şagirdlərin özlərinin, həm də məktəb heyətinin çoxu tərəfindən verilən ümumi fikrə əsasən, günlərinin çox hissəsini məktəbdə keçirən şagirdlərin əksəriyyətinin məktəbdə özlərini xoşbəxt hiss etdikləri

məlum olmuşdur. Bu xoşbəxtliyə müsbət təsir edən amillərdən yuxarıda qeyd olunanlara əlavə olaraq müəllimləri, həmyaşıdları və ailə ilə münasibətlər, akademik uğurlar, mükafatlar da yer almışdır. Nəticələrin təhlili, eyni zamanda məktəb kollektivi arasında şagirdlərinin lazımi səviyyədə başa düşülmədiyini üzə çıxarmağa kömək etdi.

Məktəb kollektivinin, xüsusən məktəb rəhbərliyinin xoşbəxt məktəb mühitini necə yarada biləcəkləri ilə bağlı maraqlı araşdırma Soleimani və Tebyanian (2011) tərəfindən İranda aparılmışdır. Müəlliflər tədqiqat məlumatlarının toplanması üçün təsviri metoddan istifadə edərək, məktəb direktorlarının yenilikçi yanaşmaları ilə məktəb xoşbəxtliyi arasında müsbət əlaqələrin olduğu qənaətinə gəlmişlər. Yaradıcı, çevik, motivasiyalı və fədakar direktorların olması məktəblərdə xoşbəxt bir atmosferin formalaşmasına imkan verir ki, bu da öz növbəsində şagirdlərin motivasiyasını artıraraq onların daha effektiv olmasına müsbət təsir edir. Beləliklə, tədqiqat məktəb direktorlarının tolerantlıq səviyyəsi ilə məktəb xoşbəxtliyi arasında müsbət əlaqənin olduğunu göstərmişdir.

Calp (2020) isə müəllimlərin və şagirdlərin qavrayışlarına əsasən “sülhsevər və xoşbəxt məktəb” anlayışını araşdırmışdır. Yarı strukturlaşdırılmış müsahibə formasından istifadə edilərək, hər iki qrupdan toplanmış məlumatlardan aydın olmuşdur ki, şagirdlər və onların müəllimləri sülhsevər və xoşbəxt məktəblə bağlı eyni əsas məsələləri təkmilləşdirmək istəmişlər. Məktəbin fiziki təhlükəsizliyi məsələsi ön plana çəkilərək, sağlam məktəb mühitinin tənzimlənməsinin vacibliyi vurğulanmışdır. Eyni zamanda həmyaşıdlarla və müəllimlərlə yaxşı münasibətlər qurmağın, sevgi, hörmət və tolerantlıq kimi ümumbəşəri dəyərlərə sahib olmağın şagirdlərin məktəbdə özlərini xoşbəxt hiss etmələrində və daha yaxşı öyrənmələrində əhəmiyyətli rol oynadığı da göstərilmişdir.

Uşaq və yeniyetmələrin xoşbəxtlik səviyyələri və akademik performansları arasında mümkün əlaqələri araşdırmış daha bir tədqiqat işi López-Pérez və Fernández-Castilla (2018)

tərəfindən İspaniyada aparılmışdır. Tədqiqatda bundan əlavə, məktəb mühitində uşaqların və yeniyetmələrin xoşbəxtlik anlayışı araşdırılmış və həmin anlayışların yaş və cinsə görə fərqlənib-fərqlənmədiyi aşkarlanmışdır. 217 uşaq və yeniyetmənin iştirak etdiyi tədqiqat üç mərhələli olmaqla (oktyabrın sonu/ noyabrın əvvəli, fevral ayı və yekun məktəb dövrü başa çatdıqdan sonra) baş tutmuşdur. Uzunmüddətli tədqiqat iştirakçıların cavablarının ətraflı təhlilinə şərait yaratmışdır. Uşaqların və yeniyetmələrin xoşbəxtlik anlayışlarının yaşa və inkişaf səviyyəsinə uyğun olaraq dəyişdiyi (həmçinin cinsə görə, əsasən qızların oğlanlardan daha çox xoşbəxt olduqları) və bunun məktəb mühitində rifah və akademik performansla necə əlaqələndirildiyi vurğulanmışdır. Əlavə olaraq, yeniyetmələrin məktəbdə uşaqlara nisbətən daha az xoşbəxt olduqları müəyyən olunmuşdur və bu da dolayısı ilə akademik göstəricilərin də zəifləməsinə gətirib çıxarmışdır.

Zarei (2013) tərəfindən aparılmış, Şiraz şəhər məktəblilərinin cəlb olunduğu tədqiqat işində də məhz yeniyetmələrin məktəbdə xoşbəxtlik dərəcəsinə təsir edən amillər araşdırılmışdır. Təhlil nəticəsində yeniyetmələrin xoşbəxtlik anlayışlarının cinsə görə fərqləndiyi aşkarlanmışdır. Burada isə əksinə, oğlan şagirdlərin qızlardan daha çox xoşbəxt olduğu müəyyən olunmuşdur. Tədqiqatda bundan əlavə, şagirdlərin xoşbəxtliyinin valideynlərin təhsil dərəcəsindən təsirlənmədiyi, əksinə valideynlərin işləməsindən asılı olduğu qənaətinə gəlinmişdir. Nəticə etibarilə, xoşbəxtliyin araşdırılması ilə bağlı təsviri nəticələr şagirdlərin təxminən 50%-nin xoşbəxtlikdən həzz aldığını, təxminən 45%-nin son dərəcə xoşbəxt olduğunu və 5%-nin xoşbəxtlik dərəcəsinin aşağı olduğunu ortaya qoymuşdur.

Orta məktəb şagirdlərinin cinsi, valideynlərinin gəlirləri, valideynlərin övladlarına dəstəyi, yaşadıqları təhsil stresi və məktəb xoşbəxtlik səviyyəsi arasındakı əlaqəni müəyyən etmək üçün Toraman və digərləri (2022) Türkiyənin Düzce şəhərində 1051 orta məktəb şagirdinin iştirakı ilə araşdırma aparmışlar. Hər bir dəyişənin ayrılıqda, “valideyn təzyiqi və ya akademik uğur üçün dəstək şkalası”, “təhsil stresi şkalası” və “məktəb xoşbəxtliyi şkalası”ndan istifadə olunmaqla

datanın toplanması təmin olunmuşdur. Araşdırmalar göstərmişdir ki, şagirdlərin məktəbdəki xoşbəxtlik səviyyəsinin tənzimlənməsində valideynlərin dəstəyi önəmli rol almaqdadır. İstər şagirdlərdə olan ümidsizlik, istər şagirdlərin yaşadıqları təhsil stresi, istərsə də onlarda akademik narahatlığa səbəb olan valideyn təzyiqi şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin azalmasına gətirib çıxarır. Müəlliflərin bu istiqamətdə qənaəti, şagirdlərin məktəbdə xoşbəxt olmasına kömək etmək üçün müsbət iqlim və təhlükəsiz mühit yaratmağa, həmçinin məktəb və ailələrin sıx şəkildə əməkdaşlıq etməsinə hədəflənmək yönündə olmuşdur.

Valideyn dəstəyi adı altında ümumilikdə ailə xüsusiyyətlərinin (ailə quruluşu, valideynin davranışı, bacı-qardaşlara fərqli davranılması, ailənin gəlir səviyyəsi və valideynin övladı ilə keçirdiyi vaxt) şagirdlərin xoşbəxtlik səviyyəsinə təsirini ifadə edən növbəti araşdırma Türkiyənin Çanaqqala Mərkəz Bölgəsində Demir (2020) tərəfindən aparılmışdır. Araşdırmalar göstərmişdir ki, şagirdlərin xoşbəxtlik səviyyəsi, ailə strukturu, valideyn davranışları, ailənin gəlir səviyyəsi və ailə ilə keçirdikləri vaxtla əlaqədardır, xüsusilə çoxuşaqlı ailələrdəki uşaqların əhvalı digər ailə strukturlarına sahib olanlara nisbətən daha yüksəkdir. Eyni zamanda, valideynlərin uşaqlarına göstərdikləri dəstəkləyici və sevgi dolu davranışlar onların xoşbəxtliyini artırarkən, laqeyd münasibətlərin xoşbəxtlik səviyyələrini azaltmış olduğu məlum olmuşdur. Nəticə etibarilə, gələcəkdə daha güvənli və məsuliyyətli şəxslər yetişdirmək naminə məktəb və ailələrin sıx şəkildə əməkdaşlıq etməsi fonunda valideynlərin təlim və hüquqi dəstək proqramlarına cəlb edilməsinin vacibliyi vurğulanmışdır.

Ailənin övladlarına verdiyi dəyər və ayırdığı vaxtın əhəmiyyətinin uşaqların məktəbdə xoşbəxtlik səviyyəsinə birbaşa təsirini məhz valideynlərin nöqteyi-nəzərindən tədqiq edən bir araşdırma Gromoxo (2023) tərəfindən Portuqaliyada həyata keçirilmişdir. Belə ki, kiçik yaşlı uşaqların valideynləri övladlarının böyük uşaqların valideynlərindən daha xoşbəxt olduğunu hiss etmişlər ki, bununla da uşaqların yaşı artdıqca xoşbəxtlik səviyyəsinin azaldığı burda da müşahidə

olunmuşdur. Valideynlər xoşbəxt məktəbi müəllimlərin lazımi bacarıq və səriştələrə malik olmaqla, maraqlı tədris və öyrənmə strategiyalarından istifadə olunan, eyni zamanda dərsdənkənar fəaliyyətlərin səmərəli şəkildə təşkil olunduğu yer kimi xarakterizə etmişlər. Bundan başqa məlumatların təhlili, məktəbdə xoşbəxtlik səviyyələrində heç bir gender fərqi aşkar etməmişdir.

Şagirdlərin xoşbəxtliyi üçün tələb olunan məktəb keyfiyyətlərinə dair valideynlərin fikirlərini öyrənən daha bir araşdırma Sezer və Can (2018) tərəfindən aparılmışdır. Keyfiyyət metodu ilə dizayn edilmiş bu tədqiqatda fiziki avadanlıq, məktəb mühiti, müəllimlərin əməkdaşlığı, sosial fəaliyyətlər, məktəb idarəçiliyi və digər dəyişənlərin araşdırılması aparılmış və müzakirə edilmişdir. Tədqiqat nəticələri göstərmişdir ki, məktəbdə şagird xoşbəxtliyinə təsir edən amillər sırasında məktəbin fiziki mühiti, şagird mərkəzli, həmçinin dəstəkləyici öyrənmə mühitinin təmin olunması şagird rifahını artırmışdır. Eyni zamanda bu araşdırmada da müəllimlərin şagirdlərə verdiyi dəyər, onların maraq və qabiliyyətlərinə uyğun öyrənmə fəaliyyətləri, eləcə də sosial fəaliyyətlər planlaşdırmaq kimi gözləntilərin şagird xoşbəxtliyinə müsbət təsir etmə imkanları kimi xarakterizə olunmuşdur. Nəticədə tədqiqat, şagird xoşbəxtliyi üçün eynilə məktəb rəhbərlərinin də təhsildə demokratiya və dünyəvilik prinsiplərini rəhbər tutmaqla liderlik bacarıqlarını nümayiş etdirməsinin zəruriliyinə diqqət çəkilmişdir.

Şagirdlərin məktəblə bağlı xoşbəxtlik səviyyəsini elə uşaqların nöqteyi-nəzərindən tədqiq edən araşdırmalardan biri də Türkiyənin Yalova vilayətində aparılmışdır. Yalçın və digərləri (2022) iki məlumat toplama alətindən (həm kəmiyyət, həm keyfiyyət ölçmə vasitəsi) istifadə etməklə, 3-cü və 4-cü siniflərdə oxuyan, ümumilikdə 196 ibtidai sinif şagirdlərinin məktəblə bağlı xoşbəxtliklərinin səviyyəsini müəyyən etmişlər. Tədqiqatın nəticələrinə əsasən, şagirdlərin məktəb xoşbəxtliyinin cins və sinif səviyyəsi dəyişənlərinə görə əhəmiyyətli bir fərq göstərmədiyi, qız və oğlanların məktəb xoşbəxtliyi haqqında düşüncələrinin bir-birinə yaxın olduğu müəyyən olunmuşdur. Bu düşüncələr arasında ən çox "oyun oynamaq və dostları ilə vaxt keçirmək", bəzi

hallarda “öyrənmək, ictimai fəaliyyətlərdə iştirak etmək” cavabları yer almışdır. Araşdırma həmçinin, məktəb rəhbərliyinin şagirdlərin məktəb mühitində xoşbəxtliyini təmin etmək üçün müəllim amilinin önəmini nəzərə alaraq, lazımi tədbirlər görməli və əlavə dəstəkləyici fəaliyyətlər təşkil etməli olduğunu vurğulamışdır.

Uşaqların xoşbəxtlik səbəblərini araşdırmış başqa bir tədqiqat Argentinada Greco və Ison (2014) tərəfindən həyata keçirilmişdir. Qarışıq metodun tətbiq olunduğu araşdırma uşaqların nöqteyi-nəzərindən uşaqlıq dövründə uşaqların xoşbəxtliyinin səbəblərini başa düşməyə kömək edir. Argentinalı uşaqların xoşbəxtliyinə töhfə verən ən mühüm amillər ailə ilə münasibətlər və onların şəxsi inkişafı üçün lazım olan sosial bacarıqların təşviqinə yönəlik olan həmyaşıdları ilə dostluq əlaqələri təşkil etmişdir. Belə ki, yoxsulluq şəraitində yaşayan uşaqların xoşbəxtliyi üçün ən vacib amilləri ümumiləşdirsək - valideynlərin, nənə və babaların onlara sevgi və qayğı göstərməsi, qardaş-bacı və yeni doğulmuş körpələrin olması, dostlarla vaxt keçirmək, əyləncəli fəaliyyətlərdə iştirak etmək, ev heyvanları ilə oynamaq və istirahətə yönəlmiş məşğuliyyətlər kimi tapıntılar uşaqlıq dövründə müsbət sosial-emosional inkişafı təşviq etməyə yönəlmiş psixi sağlamlıq proqramlarının hazırlanması üçün faydalı ola bilər mesajını vermişdir.

# Metodologiya

## Metod

Bu tədqiqatı həyata keçirmək üçün qarışıq metoddan istifadə edilmişdir. Qarışıq tədqiqat metodu həm kəmiyyət, həm də keyfiyyət məlumatlarının güclü tərəflərinə əsaslanaraq istifadə olunan, tədqiqatın nəticələrini (yəni, kəmiyyət), eləcə də prosesi (yəni, keyfiyyət baxımından) qiymətləndirməklə, sosial hadisələrin “mürəkkəb” mənzərəsini təqdim edən bir dizayndır (Creswell və Guetterman, 2018). Qarışıq metod dizaynlarından biri olan konvergent yanaşmadan istifadə olunaraq, müvafiq datanın toplanması həyata keçirilmişdir. Bu birfazalı yanaşmada həm

kəmiyyət, həm də keyfiyyət məlumatları toplanmış, ayrı-ayrılıqda təhlil edilmişdir (Creswell və Creswell, 2018).

## İştirakçılar

Tədqiqata Qazax-Tovuz Regional İdarəsinin tabeliyində olan bir şəhərdə fəaliyyət göstərən 2 ümumtəhsil müəssisəsində təhsil alan şagirdlər cəlb olunmuşlar. Belə ki, qeyd olunan şəhərdə şagird sayı ən çox olan, bir şəhər və bir kənd məktəbi tədqiqat üçün seçilmişdir. Belə seçim etməkdə məqsəd, fərqli sosial-məkan kontekstləri üçün (şəhər və kənd mühiti) bənzər təhsil şəraitində baş verən prosesləri təhlil etməkdir (Rahman, 2023). Tədqiqatın əhatə dairəsi 433 nəfər şagirddən ibarət olmuşdur. Şagirdlərin seçimində təsadüfi stratifikasiya (çoxpilləli seçmə) seçmə üsulundan istifadə olunmuşdur (Acharya və dig., 2013). Tədqiqatda iştirak edən şagirdlərə aid demoqrafik göstəricilər Cədvəl 1-də təsvir olunmuşdur.

**Cədvəl 1. Şagirdlərin demoqrafik məlumatları üzrə say və faiz göstəriciləri**

| Dəyişən | Qruplar | N | % |
|---|---|---|---|
| Cinsi | Qadın | 213 | 49,2 |
| | Kişi | 220 | 50,8 |
| | Cəmi | 433 | 100,0 |
| Sinif | 5-ci sinif | 80 | 18,5 |
| | 6-cı sinif | 84 | 19,4 |
| | 7-ci sinif | 86 | 19,8 |
| | 8-ci sinif | 99 | 22,9 |
| | 9-cu sinif | 84 | 19,4 |
| | Cəmi | 433 | 100,0 |
| Məktəbin Yerləşdiyi Ərazi | Şəhər | 209 | 48,3 |
| | Kənd | 224 | 51,7 |
| | Cəmi | 433 | 100,0 |

Cədvəl 1-ə əsasən qeyd edə bilərik ki, tədqiqatda iştirak etmiş şagirdlərin 213 nəfəri (49,2%) qadın, 220 nəfəri (50,8%) isə kişidir. Təhsil aldıqları siniflər üzrə sorğuya cəlb olunmuş respondentlərin 80 nəfəri (18,5%) 5-ci sinif, 84 nəfəri (19,4%) 6-cı sinif, 86 nəfəri (19,8%) 7-ci sinif, 99 nəfəri (22,9%) 8-ci sinif, 84 nəfəri (19,4%) isə 9-cu sinif şagirdləridir. Məktəbin yerləşdiyi əraziyə uyğun olaraq şagirdlərin 209 nəfəri (48,3%) şəhər, 224 nəfəri (51,7%) isə kənd məktəblərində təhsil alırlar.

## Data toplama aləti

Tədqiqatda data toplamaq məqsədi ilə UNESCO (2014) tərəfindən təqdim olunmuş "Xoşbəxt Məktəblər Sorğusu"ndan istifadə edilmişdir. Sorğu anketi 2014-cü ilin iyun ayında UNESCO Banqkok Xoşbəxt Məktəblər Layihəsi çərçivəsində hazırlanmışdır (Salmon, 2016). Sorğu sualları 2 mütəxəssis tərəfindən İngilis dilindən Azərbaycan dilinə (həmçinin, əksinə) məna fərqlilikləri nəzərə alınmaqla tərcümə edilmiş, müşahidə olunan fərqliliklər və anlaşılmazlıqlar üçün müəyyən redaktə işləri aparılmışdır. Tərcümə olunmuş sorğu sualları korrektə edildikdən sonra istifadə üçün hazır formaya gətirilmiş və tədqiqat prosesinin əsas mərhələsi başlamamışdan öncə tədqiqatda iştirak etməyən 20 fərqli şagirdə tətbiq edilmişdir.

## Datanın toplanması

Tədqiqat çərçivəsində data toplamaq üçün Qazax-Tovuz Regional Təhsil İdarəsindən rəsmi icazə alınmış və razılıq əsasında 2025-ci ilin fevral-mart aylarında müvafiq rayonda fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin 5, 6, 7, 8 və 9-cu sinif şagirdləri arasında sorğu aparılmışdır. Tədqiqatda iştirak edən şagirdlər təsadüfi stratifikasiya seçmə metodu (çoxpilləli seçmə) ilə seçilmişdir.

Respondentlərin müxtəlif səbəblərə görə sorğuda iştirak etməkdən imtina etməsi və ya yarımçıq yazması kimi halların baş verməsi nəzərə alınaraq, sorğuya nəzərdə tutulan saydan daha çox şagird cəlb olunmuşdur. Şagirdlərdən toplanan məlumatların yalnız tədqiqat məqsədi ilə istifadə olunacağı və digər şəxslərlə bu məlumatların paylaşılmayacağı, həmçinin məlumatlarda anonimliyin qorunacağı ilə bağlı respondentlərə məlumat verilmişdir.

## Data analizi

Tədqiqatda əldə olunan məlumatların analiz edilməsini müəyyənləşdirmək üçün, ilk öncə ölçmə üzrə dəyərləndirmə aparılmışdır. Bu, tədqiqat mövzusu ilə bağlı məlumatların toplanması və bu məlumatları ölçmək üçün istifadə olunan üsulların doğruluğunun yoxlanılması məqsədilə atılan bir addımdır. Tədqiqatda istifadə olunan data üzrə statistik təhlil aparılması üçün, SPSS 25.0 proqramından istifadə olunmuşdur. Şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayışlarının müəyyənləşdirilməsi üçün ədədi orta hesablanmışdır. Bundan əlavə, şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayışlarının onların cinsi, oxuduğu sinif və təhsil müəssisəsinin yerləşdiyi ərazi dəyişəni baxımından statistik olaraq əhəmiyyətli fərqlilik göstərib-göstərmədiyini müəyyənləşdirmək üçün müxtəlif testlərdən (t testi, dispersiya analizi (One Way ANOVA) istifadə olunmuşdur.

Tədqiqatın analiz mərhələsində hansı statistik analiz metodlarının istifadə edilməsinin daha məqsədəuyğun və etibarlı nəticələr verəcəyini müəyyənləşdirmək baxımından məlumatların normal paylanma xüsusiyyətinin öyrənilməsi zəruridir. Bu baxımdan normal paylanma göstərən məlumatlar üçün parametrik analiz metodları daha çox uyğun görülmüşdür. Ona görə də normallıq testi aparılmış və nəticələri Cədvəl 2-də qeyd edilmişdir:

**Cədvəl 2. Normallıq testi nəticələri**

| Dəyişən | *N* | Skewness | Kurtosis |
|---|---|---|---|

| | | (Əyrilik) | (Kurtoz) |
|---|---|---|---|
| Məktəb xoşbəxtliyi | 433 | .067 | -.540 |

Cədvəl 2-də normallıq testinin nəticələrinə əsasən Əyrilik (Skewness) və Kurtoz (Kurtosis) dəyərlərinin -1 ilə +1 aralığında olduğu müəyyənləşdirilmişdir. Əyrilik (Skewness) və Kurtoz (Kurtosis) dəyərləri -1 ilə +1 arasında olduğunda, bu vəziyyət balların normal paylanması ilə bağlı əhəmiyyətli bir fərqlilik olmadığını göstərir. Başqa sözlə, məlumatların simmetrik və normal bir şəkildə dağıldığı müəyyən edilir (Hair və digərləri, 2006).

Cədvəl 2-də verilmiş məlumatlara nəzər saldıqda görünür ki, məlumatların paylanması normaldır və ona görə də parametrik testlərin istifadə edilməsi qərarlaşdırılmışdır. Ədədi ortalamalara əsasən şərh verilərkən məlumatlar müxtəlif səviyyələr üzrə qiymətləndirilmişdir. Belə ki, “1.0-1.80” aralığı çox zəif, “1.81-2.60” aralığı zəif, “2.61-3.40” aralığı orta, “3.41-4.20” aralığı yüksək, “4.21-5.0” aralığı isə çox yüksək kimi şərh olunur (Büyüköztürk və digərləri, 2012).

# Nəticə

## Kəmiyyət datasının təhlil nəticələri

Qazax-Tovuz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən dövlət ümumi təhsil müəssisələrində təhsil alan 5, 6, 7, 8 və 9-cu sinif şagirdlərinin məktəb xoşbəxtliyi barədə qavrayışlarının ədədi ortalamaları ilə bağlı nəticələr Cədvəl 3-də təqdim edilmişdir

**Cədvəl 3. Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi barədə qavrayışlarının ədədi ortalamaları**

| Dəyişən | N | $\bar{X}$ | Qiymətləndirmə |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| **Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi** | 433 | 3.95 | Yüksək |

Cədvəl 3-də şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi barədə qavrayışlarının ədədi ortasının ($\bar{x}$=3.95) olduğu müəyyən olunmuşdur. Bu nəticəyə əsasən şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi barədə qavrayışlarının yüksək səviyyədə olduğu qənaətinə gəlinmişdir.

Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinə dair qavrayışlarının cins dəyişəninə görə statistik olaraq nə dərəcədə fərqlilik göstərdiyini müəyyənləşdirmək üçün müstəqil qruplar üzrə t Testi nəticələri aşağıdakı Cədvəl 4-də təqdim edilmişdir.

**Cədvəl 4. Şagirdlərin məktəb xoşbəxtliyi ilə bağlı qavrayışlarının cins dəyişəninə görə t-testi nəticələri**

| **Cins** | **n** | **$\bar{X}$** | **Sd** | **T** | **df** | **p** | **Fərqlilik** |
|---|---|---|---|---|---|---|---|
| **Qadın** | 213 | 4.03 | .838 | 1.913 | 431 | .418 | yoxdur |
| **Kişi** | 220 | 3.88 | .854 | | | | |

(*p<.05)

Cədvəl 4-də şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi barədə qavrayışlarını təhlil edərkən, cins dəyişəni baxımından statistiki olaraq fərqlilik olmadığı müşahidə olunmuşdur (t(000)=1.913, p>.05). Digər bir ifadə ilə cins dəyişəni ilə şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi arasında heç bir əlaqə olmadığı müəyyən olunmuşdur.

Şagirdlərin xoşbəxtlik səviyyəsinə dair qavrayışlarının onların təhsil aldıqları məktəbin yerləşdiyi ərazi dəyişəninə görə fərqlənib-fərqlənmədiyi təhlil edilmiş və nəticələr Cədvəl 5-də təqdim olunmuşdur.

**Cədvəl 5. Şagirdləri məktəbdə xoşbəxtlik səviyyəsinə dair qavrayışlarının məktəbin yerləşdiyi ərazi dəyişəninə görə t testi nəticələri**

| Yer | N | $\bar{X}$ | Sd | T | df | p | Fərqlilik |
|---|---|---|---|---|---|---|---|
| **Şəhər** | 209 | 3.72 | .833 | -5.818 | 431 | .000 | var |
| **Kənd** | 224 | 4.17 | .804 | | | | |

(*p<.05)

Cədvəl 5-ə nəzər yetirildiyi zaman şagirdlərin məktəb xoşbəxtliyi barədə qavrayışlarında məktəbin yerləşdiyi ərazi dəyişəni baxımından statistik olaraq fərqlilik aşkar edilmişdir. Belə ki, şəhər məktəblərində təhsil alan şagirdlərin xoşbəxtlik ilə bağlı qavrayışlarının kənd məktəblərində təhsil alanlara nisbətdə daha aşağı olduğu müşahidə olunmuşdur (p<.05).

Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinə dair qavrayışlarının sinif dəyişəninə görə statistik olaraq nə dərəcədə fərqlilik göstərdiyini müəyyənləşdirmək üçün müstəqil qruplar üzrə “One-Way ANOVA” Testi nəticələri Cədvəl 6-da qeyd olunmuşdur.

**Cədvəl 6. Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinə dair qavrayışlarının sinif dəyişəni baxımından “One-Way ANOVA” testi nəticələri**

<table>
<tr><th>Sinif</th><th>N</th><th>Df</th><th>F</th><th>P</th><th>Fərqlilik</th></tr>
<tr><td>5</td><td>80</td><td rowspan="5">4-428</td><td rowspan="5">26.432</td><td rowspan="5">.000*</td><td rowspan="5">Var<br><br>5-8, 9<br>6-8, 9<br>7-8, 9<br>8-9</td></tr>
<tr><td>6</td><td>84</td></tr>
<tr><td>7</td><td>86</td></tr>
<tr><td>8</td><td>99</td></tr>
<tr><td>9</td><td>84</td></tr>
</table>

(*p<.05)

Cədvəl 6-da şagirdlərin məktəb xoşbəxtliyi barədə qavrayışlarının onların təhsil aldıqları sinif dəyişəni baxımından müstəqil qruplar üzrə aparılmış ANOVA nəticələrinə görə 5, 6, 7, 8 və

9-cu siniflər üzrə fərqlilik aşkar edilmişdir [F(4-428)=26.432, p<.05]. Fərqliliyin hansı qruplar arasında olduğunu müəyyənləşdirmək üçün post-hoc testlərindən istifadə olunmuşdur. Post-hoc test nəticələrinə görə 5-ci sinif şagirdlərinin ($\bar{X}$=4.35) məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələri 8-ci ($\bar{X}$=3.78) və 9-cu ($\bar{X}$=3.30) sinifdə təhsil alan şagirdlərə nisbətdə daha yüksək olduğu görülmüşdür. Əlavə olaraq, 6-cı sinif ($\bar{X}$=4.20) şagirdlərinin də məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələrinin 8-ci ($\bar{X}$=3.78) və 9-cu ($\bar{X}$=3.30) sinifdə təhsil alan şagirdlərə nisbətdə daha yüksək olduğu müşahidə olunmuşdur. Bənzər nəticə 7-ci sinif şagirdlərində də görülmüşdür. Belə ki, 7-ci sinif ($\bar{X}$=4.19) şagirdlərinin də məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələrinin 8-ci ($\bar{X}$=3.78) və 9-cu ($\bar{X}$=3.30) sinifdə təhsil alan şagirdlərə nisbətdə daha yüksək olduğu nəticəsi əldə edilmişdir. Son olaraq, 8-ci ($\bar{X}$=3.78) sinifdə təhsil alan şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələrinin də 9-cu ($\bar{X}$=3.30) sinifdə təhsil alan şagirdlərə nisbətdə daha yüksək olduğu müəyyənləşdirilmişdir. Beləliklə, qeyd olunanlara əsasən şagirdlərin oxuduqları sinif səviyyəsi yüksəldikcə onların məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələrinin azaldığını söyləmək mümkündür.

## Keyfiyyət datasının təhlil nəticəsi

Şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsi ilə əlaqədar olaraq təqdim olunan açıq suallara verilən cavabları QXMÇ-nin 4 kateqoriya və 12 dəyişəninə uyğun olaraq kodlaşdırılmış və aşağıdakı cədvəllərdə təqdim olunmuşdur (UNESCO, 2024).

Şagirdləri məktəbdə xoşbəxt edən səbəblər Cədvəl 7-də, şagirdlərin fikrincə məktəbdə onları məyus edən səbəblər Cədvəl 8-də, şagirdlərə görə xoşbəxt məktəbin xüsusiyyətləri Cədvəl 9-da, şagirdlərə görə məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən səbəblər isə Cədvəl 10-da təqdim edilmişdir.

Cədvəl 7-də şagirdlərin məktəbdə onları xoşbəxt edən səbəblərlə bağlı cavabları təqdim olunmuşdur.

**Cədvəl 7. Məktəbdə şagirdləri xoşbəxt edən səbəblər**

## Məktəbdə sizi xoşbəxt edən nədir?

| Kateqoriyalar | Meyarlar | Şagirdlərin cavabları | Say | Faiz |
|---|---|---|---|---|
| **İnsanlar** | **Dəstəkləyici və əməkdaşlıq münasibətləri** *(Şagirdlər, müəllimlər, valideynlər və qəyyumlar, məktəb rəhbərləri və s. arasında pozitiv, dəstəkləyici və əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasıdır. Həmçinin, "hörmətə əsaslanan ünsiyyət", "demokratik məktəb idarəçiliyi" və s. əhatə edir)* | Sinif yoldaşlarımla vaxt keçirmək, əyləncəli anlarımızı birlikdə yaşamaq, bir-birimizə mehriban davranmaq, paylaşmaq | 192 | 44,30% |
| | | Sakit ünsiyyət quran müəllimlərim tərəfindən başa düşülmək, onların təbəssümü, xoş rəftarı ilə motivə edilmək | 165 | 38,10% |
| | | Ən yaxın dostumla ünsiyyətdə olmaq | 119 | 27,50% |
| | | Ən sevdiyim müəllimimlə ünsiyyətdə olmaq | 47 | 10,90% |
| | **Müsbət münasibət və atributlar** *(Təlim-tədris prosesi zamanı həm öyrədənin, həm də öyrənənin özünə inamlı, motivasiyalı olmaları, habelə, "mən bacararam" düşüncəsində olmaları)* | "Şahin" hərbi-idman oyunlarında, intellektual yarışlarda, tədbirlərdə iştirak edib uğur qazanmaq, özünəinamlı olmaq | 38 | 9,00% |
| **Proses** | **Şən və cəlbedici tədris** *(Şagird mərkəzli öyrənmə metodları ilə öyrənənləri daha çox innovativ yanaşmalar vasitəsilə araşdırmaya, suallar verməyə, problemləri həll etməyə sövq edir, həmçinin şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir, həmyaşıdlar və qruplarla öyrənmə fəaliyyətlərini də təşviq edir və öyrənmədən həzz almanı yaxşılaşdırır)* | Dərslərdə aktiv iştirak etmək (qrup fəaliyyətləri, problem həlli, araşdırma bacarıqlarının olduğu dərslər və s.) | 180 | 42% |
| | | Məktəbdə maraqlarımıza uyğun fəaliyyətlərlə (futbol, basketbol oynamaq, rəsm çəkmək, şahmat oynamaq və s.) məşğul olmaq | 97 | 22,40% |
| | **Bütöv və çevik qiymətləndirmələr** *(Öyrənilmiş biliklər haqqında tənqidi düşünməyə, tətbiq etməyə imkan verən səriştələrin, bacarıqların və davranışların əldə edilməsi istiqamətində öyrənənlərin irəliləyişlərini qiymətləndirməyə imkan* | Müəllimlərim tərəfindən təriflənmək, müsbət rəy almaq, dərslərimdən əla qiymət almaq | 89 | 20,60% |

| | | | | |
|---|---|---|---|---|
| | *verən"səriştə əsaslı" qiymətləndirmədir. Bundan başqa, çətinliklərə daha asanlıqla uyğunlaşa və ömür boyu öyrənmə imkanlarını təşviq edən qiymətləndirmə idrakı bacarıqlarla yanaşı, həm də şagirdlərin sosial bacarıqlarını da əhatə edir)* | | | |
| **Məkan** | **Təhlükəsiz, sağlam, əlçatan və dayanıqlı infrastruktur və obyektlər** *(Təhlükəsiz və sağlam infrastruktur, akustika-səs effekti, havalandırma, işıqlandırma, istilik sistemi və s. nəzərə alınaraq, əlverişli şərait yaratmaq üçün düzgün material və resurslardan istifadə edilir.)* | Məktəbin infrastrukturundan məmnun olmaq. Xüsusən, məktəbin kitabxanasında vaxt keçirmək | 68 | 15,70% |
| **Prinsiplər** | **Fərqlərə hörmət və müxtəlifliyin və bərabərliyin əhatə olunması** *(Qabiliyyət, şəxsiyyət və ya xüsusiyyətlərindəki fərqlərdən asılı olmayaraq, bütün fərdlərin təhsilə çıxış əldə etmək hüququna malik olduğuna inamı təcəssüm etdirir, şagirdlər arasında bərabərlik və daxiletmə (inklüziya) anlayışları təşviq olunur.)* | Məktəbli forması geyinmək | 9 | 2,10% |

Cədvəl 7-yə nəzər yetirdiyimiz zaman, QXMÇ-nin hər bir kateqoriyası üzrə şagird cavablarının təmsil olunduğu müşahidə olunmuşdur. Belə ki, bəzi şagird cavabları "İnsanlar" kateqoriyasında iki meyarla, həmçinin, "Proses" kateqoriyasında iki meyarla, "Məkan" və "Prinsiplər" kateqoriyalarında isə hər biri bir meyar olmaqla, əhatə olunmuşdur.

433 nəfər şagird arasında keçirilmiş sorğunun nəticələri təhlil edildiyi zaman, onları məktəbdə xoşbəxt edən səbəblər arasında ən çox qeyd olunan faktorun *sinif yoldaşları ilə vaxt keçirmələri* olduğu aşkarlanmışdır. Belə ki, şagirdlərin 192 nəfəri məktəbdə sinif yoldaşları ilə vaxt keçirəndə, əyləncəli anlarını birgə yaşayanda, bir-birlərinə qarşı mehriban davrananda və bir-birləri ilə əşyalarını paylaşanda xoşbəxt hiss etdiklərini bildirmişlər. Bundan başqa *ən yaxın dostları ilə ünsiyyətdə olmaqla* özlərini məktəbdə xoşbəxt hiss edən şagird sayı da az olmamışdır (119 nəfər). Göründüyü kimi, şagirdləri xoşbəxt edən səbəblərin bir qismi onların bir-birləri ilə olan münasibətlərinə aiddir ki, bu da şagirdlərin sağlam-emosional inkişafına öz töhfəsini verir. Eyni zamanda şagirdlər arasında qarşılıqlı əlaqələr onlarda empatiya, əməkdaşlıq etmə və s. kimi bacarıqları da formalaşdırmış olur. Bu da öz növbəsində şagirdlərin akademik nailiyyətlərinə kömək edir.

Bəzi şagirdlər isə müəllimləri ilə münasibətlərdə xoşbəxt hiss etdiklərini bildirmişlər. Cədvəl 7-yə nəzər salanda, bu faktor say etibarilə heç də digər variantlardan geridə qalmır. Belə ki, 165 nəfər şagird müəllimlərinin onlarla xoş rəftarı zamanı, müəllimləri tərəfindən anlayışla qəbul edildikdə xoşbəxt hiss etdiklərini, 47 nəfər şagird isə ən sevdiyi müəllimi ilə ünsiyyət quranda xoşbəxt olduqlarını qeyd etmişlər. Müəllim-şagird münasibətlərinin qarşılıqlı hörmət, inam, pozitiv hisslər və dəstəkləyici əlaqələr fonunda qurulması şagird motivasiyasını canlandıra, onların dərsdə fəallığını artıra və prosesdən zövq almasına imkan verə bilər.

Bu nəticələrdən də məlum olur ki, şagirdlər istər sinif yoldaşları, istər müəllimləri, istərsə də ən yaxın dostları və ya aidiyyəti üzrə digər şəxslər tərəfindən dəstəkləndiklərini hiss etdiyi halda, habelə, əməkdaşlığa əsaslanan münasibətlərdə özlərini daha çox xoşbəxt hiss edirlər. Çünki müsbət kommunikasiya, tərəflər arası sağlam münasibətlər təlim-tədris prosesinə şagird cəlbini sürətləndirmək, onların motivasiyasını və öyrənmə fəaliyyətlərində iştirakını təmin etmək baxımından əhəmiyyətlidir. Müsbət münasibətlərin davamlılığının təmin olunması öyrənənlərdə öz qabiliyyətlərinə inamı artırır. Özünə inamı olan, "mən bacararam" düşüncəsinə sahib olan şagirdlər digərləri ilə müqayisədə daha yaxşı performans göstərməyə meyilli olurlar. Məhz şagirdlərin 47 nəfəri *"Şahin" hərbi-idman oyunlarında, intellektual yarışlarda, tədbirlərdə iştirak edib uğur qazanmaq* cavabını verməklə sözügedən performansı nümayiş etdirmələrini xoşbəxt hiss etmələrinə səbəb olan amil kimi vurğulamışlar.

Şəxslərarası münasibətlərdən başqa şagirdləri məktəbdə xoşbəxt hiss etdirən səbəblər arasında sayca çoxluq təşkil edən bir digər faktor *dərsdə aktiv iştirak* olmuşdur. Belə ki, şagirdlərdən, 180 nəfəri dərsdə aktivlik nümayiş etdirdiyi halda xoşbəxt olduqlarını bildirmişlər. Aktivlik öyrənmədən həzz almağa imkan verir. Bu prosesdə sevinc, həvəs, maraq kimi emosiyalar öyrənmənin inkişafına kömək edir. Məhz tədqiqatda iştirak edən digər qrup şagirdlər (97 nəfər) *maraqlarına uyğun fəaliyyətlərin* (futbol, basketbol oynamaq, rəsm çəkmək, şahmat oynamaq və s.) onları məktəbdə xoşbəxt edən səbəblər olduğuna diqqət çəkmişlər. Bu kimi fəaliyyətlərlə məşğul olmaqda həvəsli olmaq, şagirdlərin maraqlarının müsbət tərəfə istiqamətləndiyini göstərir. Bundan başqa, tədqiqat iştirakçılarının *89 nəfəri müəllimləri tərəfindən tərifləndə, müsbət rəy alanda* xoşbəxt olduqlarını bildirmişlər. Pozitiv və vaxtında verilmiş rəy şagirdlərin motivasiyasını artırır, özlərinə olan inamı gücləndirir və daha yaxşı nəticələr əldə etməyə imkan verir. Müəllimin şagirdə tərifi onlara "bacarıqlıyam" mesajını verməklə yanaşı, onlarda məsuliyyət hissi də

formalaşdıra bilər. Bu baxımdan, Cədvəl 7-də təqdim olunan cavablardan da məlum olur ki, məktəbdə effektiv əks-əlaqənin qurulması şagirdlərin ehtiyacları içərisində yer almaqdadır.

Başqa ehtiyaclar da vardır ki, onları bəzi şagirdlərin qeydində görmək olur. Belə ki, *məktəbin kitabxanasında vaxt keçirməyin* özünə də onları xoşbəxt edən səbəblər sırasında rast gəlinir. 68 nəfər şagirdin məkan anlayışı sinif otağı ilə kifayətlənmir və özləri üçün məktəbin kitabxanasını təhlükəsiz yer hesab edirlər. Kitabxana adətən sakit yer olduğu üçün təxmin etmək olar ki, bu məkan onlara rahatlıq verir və xoşbəxt hiss etmələrinə səbəb olur.

Şagirdlərin məktəbdə xoşbəxt edən səbəblər içərisində say etibarilə ən az şagird cavabı *məktəbli forması* ilə bağlı olmuşdur. Şagirdlər məktəbli forması geyinməyin onlar arasında bərabərlik anlayışının olduğuna diqqət çəkərək, onları xoşbəxt etdiyini bildirmişlər.

Göründüyü kimi, "Məktəbdə sizi xoşbəxt edən nədir? açıq sualına şagirdlərin verdikləri cavablar QXMÇ sənədinin hər bir kateqoriyasını müəyyən mənada əhatə etmişdir.

Şagirdləri məktəbdə xoşbəxt edən amillərlə yanaşı, onları məktəbdə məyus edən amillərlə bağlı verilən cavablar təhlil edilmiş və eyni qaydada QXMÇ-si üzrə qeyd olunan kateqoriyalara uyğun təsnif edilmişdir. Nəticələr Cədvəl 8-də təqdim olunmuşdur.

**Cədvəl 8. Məktəbdə şagirdləri məyus edən səbəblər**

## Məktəbdə sizi məyus edən nədir?

| Kateqoriyalar | Meyarlar | Şagirdlərin cavabları | Say | Faiz |
|---|---|---|---|---|
| İnsanlar | **Dəstəkləyici və əməkdaşlıq münasibətləri** *(Şagirdlər, müəllimlər, valideynlər və qəyyumlar, məktəb rəhbərləri və s. arasında pozitiv, dəstəkləyici və əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasıdır. Həmçinin, "hörmətə əsaslanan ünsiyyət", "demokratik məktəb idarəçiliyi" və s. əhatə edir.)* | Məktəbdə cəsarətsiz olmaq, çəkinmək, fikrimi ifadə edə bilməmək, sərbəst olmamaq, tək olmaq, dostlarıma kömək edə bilməmək, onları incitmək | 19 | 4,39% |
| | | Ən yaxın dostumu məktəbdə görməmək | 15 | 3,50% |
| | **Müsbət münasibət və atributlar** *(Təlim-tədris prosesi zamanı həm öyrədənin, həm də öyrənənin özünə inamlı, motivasiyalı olmaları, habelə, "mən bacararam" düşüncəsində olmaları.)* | "Şahin" hərbi-idman oyunlarında, intellektual yarışlarda, tədbirlərdə iştirak edə bilməmək və ya çox çalışsam da uğur qazana bilməmək, özgüvənli ola bilməmək | 18 | 4% |
| | **Fiziki və sosial-emosional rifah** *(Məktəbdə tərəflər arasında mənfi sosial qarşılıqlı əlaqələr, fiziki və sosial-emosional cəhətdən yaxşı olmayan mühit, şagirdlərin, habelə müəllimlərin fiziki və psixi sağlamlığına qarşı zorakılıq və s.)* | Uşaqların bir-biri ilə və ya mənimlə kobud rəftarı, qeyri-etik hərəkətlər, bullinq etmələrindən (lağ etmələri, gizlicə videoya çəkmələri və s.) incinmək | 179 | 41,34% |
| | | Uşaqların nəzakətsiz davranışları (dərsi pozması, müəllimi əsəbləşdirmələri, bufetdə sıra mədəniyyətinin olmaması səbəbindən narahatlıq yaşanması, parta, pəncərəni sındırması və s.) ilə rastlaşmaq | 177 | 40,88% |
| | | Müəllimlərin nəzakətsiz danışması, qışqırması, davranışı (məktəbin həyatində siqaret çəkən kişi müəllimləri), bizə əl qaldırması, cəza verməsi, ayrı-seçkilik etməsi və s. kimi hallara şahid olmaq | 150 | 34,60% |

| | | | | |
|---|---|---|---|---|
| | | Uşaqların dərsdən yayınma hallarının qarşısını almaq üçün 3-cü dərsdən sonra məktəbin qapılarının bağlanması və heç kimin həyətə çıxmasına icazə verilməməsi kimi neqativ hallardan incinmək | 19 | 4,39% |
| **Proses** | **Şən və cəlbedici tədris** *(Şagird mərkəzli öyrənmə metodları ilə öyrənənləri daha çox innovativ yanaşmalar vasitəsilə araşdırmaya, suallar verməyə, problemləri həll etməyə sövq edir, həmçinin şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir, həmyaşıdlar və qruplarla öyrənmə fəaliyyətlərini də təşviq edir və öyrənmədən həzz almanı yaxşılaşdırır.)* | Müəllimin izahı yorucu olan maraqsız, əyləncəli keçirilməyən və çətin anlaşılan, resurslardan az istifadə olunan, elektron lövhədən isə istifadə olunmayan dərslərdə iştirak etmək. Bundan başqa, İngilis dili dərsində ingilis dilinə danışmamaq, fiziki tərbiyə dərsində qaz yerişi yerimək. | 98 | 22,60% |
| | **Balanslaşdırılmış kurikulumlar** *(Akademik iş yükünün müəllimin tədrisdə planlama etməsinə mane olmaması, sosial-emosional öyrənmə və yumşaq bacarıqların planda yer alması, bundan başqa şagirdlərin öyrənmə motivasiyasını artırmağa kömək edən "dərsdənkənar" fəaliyyətlər də nəzərə alınmalıdır)* | Fiziki tərbiyə, İnformatika dərslərini sinif otağında keçmək | 22 | 5,10% |
| | | Çoxlu ev tapşırığı ilə yüklənmək | 18 | 4,20% |
| | | Məktəbdən kənar gəzintilərin təşkil olunmaması | 7 | 1,60% |
| | **Bütöv və çevik qiymətləndirmələr** *(Öyrənilmiş biliklər haqqında tənqidi düşünməyə, tətbiq etməyə imkan verən səriştələrin, bacarıqların və davranışların əldə edilməsi istiqamətində öyrənənlərin irəliləyişlərini qiymətləndirməyə imkan verən "səriştə əsaslı" qiymətləndirmədir. Bundan başqa, çətinliklərə daha asanlıqla uyğunlaşa və ömür boyu öyrənmə imkanlarını təşviq edən qiymətləndirmə idrakı bacarıqlarla yanaşı, həm də* | Müəllimlərim tərəfindən təriflənməmək, müsbət rəy almamaq, dərslərimdən aşağı qiymət almaq | 96 | 22,20% |
| | | Kiçik Summativ Qiymətləndirmələrin tez-tez və çətin olması | 32 | 7,40% |

| | | | | |
|---|---|---|---|---|
| | *şagirdlərin sosial bacarıqlarını da əhatə edir.)* | | | |
| **Məkan** | **Təhlükəsiz, sağlam, əlçatan və dayanıqlı infrastruktur və obyektlər** *(Təhlükəsiz və sağlam infrastruktur, akustika-səs effekti, havalandırma, işıqlandırma, istilik sistemi və s. nəzərə alınaraq, əlverişli şərait yaratmaq üçün düzgün material və resurslardan istifadə edilir.)* | Məktəbin bəzi yerlərində natəmizlik (sinfimizin natəmiz halları, gül-çiçəyin olmaması, ayaq yolunun natəmiz olması, zərərli vərdişlərə yiyələnən uşaqlar (siqaret çəkmək) | 49 | 11,32% |
| | | Məktəbin infrastrukturundan məmnun olmamaq (məktəbin həyətinin, bufetinin balaca olması, bağçasının böyük olmaması) | 37 | 9,00% |
| | | Bufetdə satılan ərzaqları baha qiymətə almaq | 25 | 5,80% |
| **Prinsiplər** | **Fərqlərə hörmət və müxtəlifliyin və bərabərliyin əhatə olunması** *(Qabiliyyət, şəxsiyyət və ya xüsusiyyətlərindəki fərqlərdən asılı olmayaraq, bütün fərdlərin təhsilə çıxış əldə etmək hüququna malik olduğuna inamı təcəssüm etdirir, şagirdlər arasında bərabərlik və daxiletmə (inklüziya) anlayışları təşviq olunur.)* | Məktəbli forması geyinmək, saçımızı hörməyimizi tələb etmək | 37 | 8,50% |
| | | Digər siniflər kimi I növbə yox, II növbə dərs keçmək. Habelə, digər siniflər kimi 5 günlük deyil, 6 günlük məktəb | 24 | 5,50% |

Cədvəl 8-ə nəzər yetirdiyimiz zaman QXMÇ-nin hər bir kateqoriyası üzrə şagird cavablarının təmsil olunduğu görünür. Belə ki, bəzi şagird cavabları "İnsanlar" kateqoriyasında üç meyarla, "Proses" kateqoriyasında da üç meyarla, "Məkan" və "Prinsiplər" kateqoriyaları isə hər biri bir meyar olmaqla əhatə olunmuşdur.

433 nəfər şagird arasında keçirilmiş sorğunun nəticələri təhlil edildiyi zaman onları məktəbdə məyus edən səbəblər arasında ən çox qeyd olunan faktor uşaqların bir-birləri ilə kobud rəftar etmələri olmuşdur. Belə ki, şagirdlərin 179 nəfəri məktəbdə *uşaqların bir-birləri ilə və ya onlarla kobud rəftarı, qeyri-etik hərəkətlər etməsi, bullinqə məruz qaldıqda (yoldaşlarının lağ etmələri, gizlicə videoya çəkmələri və s.)* daha çox məyus olduqlarını bildirmişlər. Bu məyus edici səbəblər həm məktəb üçün, həm şagirdlər üçün, həm onların valideynləri üçün, həm də ümumilikdə icma üçün ciddi narahatlığa səbəb olan bir hal kimi dəyərləndirilə bilər. Kobud rəftar, bullinq halları iki tərəfin də (bullinq edən və bullinqə məruz qalan şagirdlərin) gələcəyinə mənfi təsir göstərə bilər. Kobud rəftarın qurbanı olan şagirdlər sosial həyatdan təcrid oluna, dostluq və münasibətlər qurmaqda çətinlik çəkə bilər, habelə akademik uğursuzluqla üzləşə bilərlər. Eyni zamanda kobud rəftar edən tərəfin aqressiv olması və başqaları ilə ünsiyyətdə empatiya qura bilməməsi həmin yaş dövründəki uşaqların psixoloji vəziyyətini əks etdirir. Digər tərəfdən, şagird cavabları içərisində onları məyus edən ikinci və say etibarilə heç də geri qalmayan faktor uşaqların nəzakətsiz davranışları olmuşdur. Belə ki, 177 nəfərin qeydləri içərisində *uşaqların dərsi pozmaları, müəllimləri əsəbləşdirmələri, bufetdə sıra mədəniyyətinin olmaması səbəbindən narahatlıq yaşanması, məktəbdə parta, pəncərəni sındırmaq kimi nizam-intizam hallarının pozulması* onları məyus edən səbəblər olmuşdur. Bu qeydlərdən məlum olur ki, məktəbdə şagirdlər arasında mənfi sosial qarşılıqlı əlaqələr, fiziki və sosial-emosional cəhətdən yaxşı olmayan mühit, şagirdlərin, fiziki və psixi sağlamlığına qarşı zorakılıq halları onların özlərini məktəbdə daha çox məyus hiss etdirməsinə səbəb olmuşdur. Sadalanan amillərin şagirdlərin dili ilə ifadə olunması isə

narahatedici bir hal olaraq dəyərləndirilə bilər. İstər şagirdlərin nəzakətsiz davranışları olsun, istərsə də bir-birlərinə qarşı kobud rəftarı, bullinq olsun, bütün bunlar tədqiqat aparılan məktəblərdə zorakılıq əlamətlərinin olduğunu göstərir. Məktəblərdə zorakılıq təkcə şagirdlərin bir-birlərinə qarşı deyil, hətta müəllimləri ilə münasibətlərinə də aiddir. Belə ki, 150 nəfərin ifadə etdiyi kimi, onları məktəbdə ən çox məyus edən digər bir faktor *müəllimlərin onlarla nəzakətsiz danışması, qışqırması, davranışı (məktəbin həyətində siqaret çəkən kişi müəllimləri), onlara cəza verməsi, ayrıseçkilik etməsi* və s. kimi halların olmasıdır. Tədqiqat aparılan məktəblərdə belə halların davamlı baş verdiyi təxmin edilir. Habelə, bu nəticə məktəbdə sosial münasibətlərdə ciddi problemlərin olduğuna işarə edir. Bundan əlavə, şagird cavablarına (19 nəfər) əsasən məktəblərdə müşahidə olunan digər bir məyus edici faktor *şagirdlərin dərsdən yayınma hallarının qarşısını almaq üçün 3-cü dərsdən sonra məktəbin qapılarının bağlanması və heç kimin həyətə çıxmasına icazə verilməməsi* olmuşdur. Bu kimi neqativ halların olması isə uşaqlarda narazılıq yarada və psixoloji baxımdan xoş olmayan bir mühit formalaşdıra bilər. Eynilə, *məktəbdə cəsarətsiz olduqlarından, tək olmaqdan, fikrini ifadə etməkdə çətinlik çəkdiyini* bildirənlər də 19 nəfərdir. Sayca az görünsə də, ancaq sinifdə bir nəfər şagirdin belə bu səbəblərdən əziyyət çəkməsi, həmin sinifdə münasibətlərin, dəstəyin və anlayışın yetərli olmadığına və sinifdə müxtəlifliyə qarşı tolerant yanaşmada problemlərin olduğuna bir işarədir. Bu cür hallar şagirdlərin psixososial və təhsil həyatına mənfi təsir göstərir, şagirdlərin psixi sağlamlığı ilə bağlı oxucunu düşündürür və şagirdlərin həyatında müəllim amilinin əhəmiyyətini vurğulayır. Çünki Cədvəl 8-i təhlil edən zaman yenə də, müəllimin şagirdlərdə yaratdığı gərginliyi onların verdikləri cavablarda müşahidə etmək mümkündür. Belə ki, şagirdlərin 98 nəfəri *müəllimin izahı yorucu olan maraqsız, əyləncəli keçirilməyən və çətin anlaşılan, resurslardan az istifadə olunan, elektron lövhədən isə istifadə olunmayan dərslərdə iştirak etməkdən* məyus olduqlarını ifadə etmişlər. Bundan başqa, *müəllimləri tərəfindən tariflənməmək, müsbət rəy almamaq, gəzintilərin təşkil olunmadığı, ev*

*tapşırıqları ilə yüklənmək* və s. kimi ehtiyaclarının olduğunu da bildirmişlər. Bununla şagirdlər, sanki təhsildə cavabdeh olan hər kəsi bir daha düşünməyə və çıxış yolları axtarmağa sövq edir. Digər tərəfdən *məktəbin gigiyenik baxımdan natəmiz vəziyyəti, xüsusən ayaq yolunda zərərli vərdişlərə yiyələnən uşaqlar (siqaret çəkən uşaqlar)* olması da şagirdləri məyus edən səbəblərdən olmuşdur. Eyni zamanda *məktəbin həyətinin və bufetinin balaca olması, bağçasının böyük olmaması* və s. kimi hallar da qeyd olunmuşdur. Baxmayaraq ki, tədqiqat aparılan məktəblərin şəraiti (hər iki məktəb) infrastruktur baxımından müəyyən mənada dəstəklənsə də, ancaq şagirdlərin qeyd etdiyi səbəblərdən məktəblərin xoşbəxt məkan olması üçün infrastrukturun kifayət etmədiyi qənaətinə gəlməyə imkan verir. Əlavə olaraq, *təmiz və gigiyenik şərait, sağlam qidalanma* da şagirdlərin məktəbdə görmək istədikləri amillərə daxildir.

Göründüyü kimi, "Məktəbdə sizi məyus edən nədir? açıq sualına şagirdlərin verdikləri cavablar QXMÇ sənədinin yenə də hər bir kateqoriyasını müəyyən mənada əhatə etmişdir.

Şagirdlərə xoşbəxt məktəbin xüsusiyyətləri ilə bağlı ünvanlanan suala verilən cavablar təhlil edilmiş və eyni qaydada QXMÇ-si üzrə qeyd olunan kateqoriyalara uyğun təsnif edilmişdir. Nəticələr Cədvəl 9-da təqdim olunmuşdur.

**Cədvəl 9. Xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri**

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri əlamətləri/hansılardır?**

| Kateqoriyalar | Meyarlar | Şagirdlərin cavabları | Say | Faiz |
|---|---|---|---|---|
| **İnsanlar** | Dəstəkləyici və əməkdaşlıq münasibətləri *(Şagirdlər, müəllimlər, valideynlər və qəyyumlar, məktəb rəhbərləri və s. arasında pozitiv, dəstəkləyici və əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasıdır. Həmçinin, "hörmətə əsaslanan ünsiyyət", "demokratik məktəb idarəçiliyi" və s. əhatə edir.)* | Müəllimlər və şagirdlərin (məktəb rəhbəri ilə, müəllimlərin bir-birləri ilə, valideynlərlə) bir-birləri ilə mehriban, səmimi, nəzakətli olduğu, bir-birlərinə dəstək olduğu, sevinclərini paylaşdıqları, şagirdləri stimullaşdıran məktəb | 230 | 53,12% |
| | | Qarşılıqlı hörmətə əsaslanan, qaydaların tətbiq olunduğu, demokratik məktəb idarəçiliyi və pozitiv nizam-intizamın olduğu məktəb | 106 | 24,50% |
| **Proses** | **Şən və cəlbedici tədris** *(Şagird mərkəzli öyrənmə metodları ilə öyrənənləri daha çox innovativ yanaşmalar vasitəsilə araşdırmaya, suallar verməyə, problemləri həll etməyə sövq edir, həmçinin şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir, həmyaşıdlar və qruplarla öyrənmə fəaliyyətlərini də təşviq edir və öyrənmədən həzz almanı yaxşılaşdırır.)* | Dərslərin əyləncəli keçirildiyi, hər kəsin iştirakının təmin olunduğu praktiki dərslərin, habelə, İKT-dən məqsədəuyğun istifadə olunan dərslərin keçirildiyi məktəb | 109 | 25,20% |
| | | Şagirdlərin məktəbdə asudə vaxtının səmərəli təşkil olunduğu (hobbi otağı, rəqs, musiqi, rəsm, şahmat otaqlarının olması, kofe içmək, əylənmək üçün maraqlı otaqların olduğu, məktəbin futbol klubunun olduğu) məktəb | 83 | 19,20% |
| | **Balanslaşdırılmış kurikulumlar** *(Akademik iş yükünün müəllimin tədrisdə planlama etməsinə mane olmaması, sosial-emosional öyrənmə və yumşaq bacarıqların planda yer alması, bundan başqa şagirdlərin öyrənmə motivasiyasını artırmağa kömək edən "dərsdənkənar" fəaliyyətlər də nəzərə alınmalıdır)* | Şagirdlərin ehtiyaclarının nəzərə alındığı, onların bacarıqlarının inkişafını hədəfləyən tədris planlarının hazırlandığı məktəb | 31 | 7,20% |
| | | Siniflərarası yarışların, şagirdlərin əl işlərindən ibarət sərgilərin, iməcliklərin (hər həftə) keçirildiyi və müəllimlərlə birgə şagirdlərin gəzintilərinin planlaşdırıldığı məktəb | 29 | 6,70% |
| | **Bütöv və çevik qiymətləndirmələr** *(Öyrənilmiş biliklər haqqında tənqidi düşünməyə, tətbiq etməyə imkan verən səriştələrin, bacarıqların və davranışların* | Ədalətli qiymətləndirmənin olduğu (summativ qiymətləndirmənin tez-tez olmadığı və ya yalnız rəqəmli qiymətləndirmənin deyil də, konstruktiv rəyin vurğulandığı) məktəb | 20 | 4,60% |

| | | | | |
|---|---|---|---|---|
| | *əldə edilməsi istiqamətində öyrənənlərin irəliləyişlərini qiymətləndirməyə imkan verən"sərişdə əsaslı" qiymətləndirmədir. Bundan başqa, çətinliklərə daha asanlıqla uyğunlaşa və ömür boyu öyrənmə imkanlarını təşviq edən qiymətləndirmə idrakı bacarıqlarla yanaşı, həm də şagirdlərin sosial bacarıqlarını da əhatə edir.)* | | | |
| **Məkan** | **Təhlükəsiz, sağlam, əlçatan və dayanıqlı infrastruktur və obyektlər** *(Təhlükəsiz və sağlam infrastruktur, akustika-səs effekti, havalandırma, işıqlandırma, istilik sistemi və s. nəzərə alınaraq, əlverişli şərait yaratmaq üçün düzgün material və resurslardan istifadə edilir.)* | Güllü-çiçəkli bağçasının, böyük oyun parkının olduğu məktəb | 84 | 19,40% |
| | | Məktəbin əla infrastrukturunun (hər fənnə aid kabinə, voleybol, basketbol və böyük idman zalı olan, robot otağı, böyük kitabxanası olan, böyük bufeti, keyfiyyətli yeməkləri olan), məktəbə girişin kartla olduğu, yad insanların məktəbə girişinə icazə verilməyən məktəb | 83 | 19,20% |
| | **Funksional və inklüziv məkan dizaynları** *(Öyrənmə və rifah üçün əlverişli olan fiziki məkanların, məktəbin, siniflərin dizaynı, orada istifadə edilən əşyalar, mebellər, resurslar və s.)* | Əlamətdar günlərə uyğun olaraq bəzənmiş məktəb | 39 | 9% |
| | | Sinifləri fərqli dizayn edilmiş (divarların rəngi, partaların fərqli düzülüşü, divarlarda uşaqların əl işlərindən ibarət guşələrin olduğu və s.) məktəb | 20 | 4,60% |
| **Prinsiplər** | **Fərqlərə hörmət və müxtəlifliyin və bərabərliyin əhatə olunması** *(Qabiliyyət, şəxsiyyət və ya xüsusiyyətlərindəki fərqlərdən asılı olmayaraq, bütün fərdlərin təhsilə çıxış əldə etmək hüququna malik olduğuna inamı təcəssüm etdirir, şagirdlər arasında bərabərlik və daxiletmə (inklüziya) anlayışları təşviq olunur.)* | Məktəbli forması deyil də, sərbəst geyim formasını olduğu məktəb | 40 | 9,20% |
| | | Uşaqlarda cinsə görə ayrıseçkilik olunmadığı məktəb | 19 | 4,40% |
| | | Məktəbimizin digər məktəblər kimi beş günlük olduğu məktəb | 5 | 1,20% |

Cədvəl 9-a nəzər yetirdiyimiz zaman QXMÇ-nin hər kateqoriyası üzrə şagird cavablarının təmsil olunduğu müşahidə edilmişdir. Belə ki, bəzi şagird cavabları "İnsanlar" kateqoriyasında bir meyarla, "Proses" kateqoriyasında üç meyarla, "Məkan" kateqoriyasında iki meyarla, "Prinsiplər" kateqoriyasında isə bir meyarla əhatə olunmuşdur.

433 nəfər şagird arasında keçirilmiş sorğunun nəticələri təhlil edildiyi zaman xoşbəxt məktəbin əsas xüsusiyyətlərinə dair ən çox qeyd olunan faktor (230 nəfər) *müəllimlər və şagirdlərin (məktəb rəhbəri ilə, müəllimlərin bir-birləri ilə, valideynlərlə) bir-birləri ilə mehriban, səmimi, nəzakətli olduğu, bir-birlərinə dəstək olduğu, sevinclərini paylaşdıqları, şagirdləri stimullaşdıran məktəb* deyə qeyd etmişlər. Bununla şagirdlər xoşbəxt məktəbin əsasən münasibətlər üzərində qurulduğuna diqqət çəkməyə çalışmış, tərəflərin bir-birlərinə qarşı nəzakət, hörmət, dəstək, səmimiyyət və anlayış nümayiş etdirdiyi məktəbi təsvir etmişlər. Həmçinin, şagirdlərin 106 nəfəri *xoşbəxt məktəbi qarşılıqlı hörmətə əsaslanan, qaydaların tətbiq olunduğu, demokratik məktəb idarəçiliyi və pozitiv nizam-intizamın olduğu məktəb* kimi təsvir etməklə, demokratik məktəb idarəçiliyində komanda ruhunun önəminə diqqət çəkmişlər. Göründüyü kimi, şagirdlərə görə məktəbdə uğurlu və pozitiv təhsil mühiti yaratmaq üçün məktəbdə demokratik idarəetmə vacib amildir. Qarşılıqlı hörmət, anlaşma, konstruktiv münasibətlərlə yanaşı, fərqlilikləri anlayışla qarşılayan məktəb xoşbəxt məktəbdir. Şagirdlərin xoşbəxt məktəb üçün münasibətlər anlayışından sonrakı əsas hesab etdikləri məqam tədrisin əyləncəli, cəlbedici, onların maraqlarına və ehtiyaclarına uyğun, resurslarla zəngin, innovativ yanaşmaların tətbiq olunduğu, idraki bacarıqlarla yanaşı, sosial bacarıqların formalaşdırıldığı, effektiv əks-əlaqənin olduğu, bir sözlə öyrənmədən həzz alındığı məktəb olmuşdur. Bununla şagirdlər onların xoşbəxt olduqları, motivasiyalı və aktiv iştirak etdikləri bir mühiti təmin etmək üçün bu işdə məsul olan akademik heyəti əməkdaşlığa dəvət edir. Habelə, tədris proqramlarının təkmilləşdirilməsində fikir mübadiləsi aparmağın, birgəlik nümayiş etdirmənin əhəmiyyətini də vurğulamışlar. Belə ki, bəzi

şagirdlər xoşbəxt məktəbi *şagirdlərin ehtiyaclarının nəzərə alındığı, onların bacarıqlarının inkişafını hədəfləyən tədris planlarının hazırlandığı məktəb* adlandırmışlar. Onlara görə məktəblərdə yalnız bilik ötürməklə kifayətlənməməli, şagirdlərin fərdi xüsusiyyətləri, maraqları, öyrənmə tərzləri və çətinlikləri nəzərə alınaraq fərdi yanaşma nümayiş etdirilməli və hər kəsin bacarıqlarını inkişaf etdirməsinə şərait yaradılmalıdır. Bəzi şagirdlər isə xoşbəxt məktəblə bağlı digər maraqlı bir amil qeyd etmişlər. 83 nəfərin vurğuladığı faktor *şagirdlərin məktəbdə asudə vaxtının səmərəli keçirilməsi* ilə bağlı olmuşdur. Şagirdlərin cavablarına nəzər yetirən zaman asudə vaxtlarını necə maraqlı təsvir etdiklərini müşahidə etmək olur. Bunlardan, *hobbi otağı, rəqs, musiqi, rəsm, şahmat otaqlarının, kofe içmək, əylənmək üçün maraqlı otaqların olduğu, bundan başqa məktəbin futbol klubunun olduğu* kimi qeydlər onların maraqlarından xəbər verir. Göründüyü kimi, şagirdlər bu vaxtı mənasız və boş yerə sərf etmədən, faydalı, əyləncəli və öyrədici keçirmək istəyirlər. Vaxtını səmərəli keçirmək istəyən başqa şagirdlər də vardır ki, onlara görə *siniflər arası yarışların, uşaqların əl işlərindən ibarət sərgilərin keçirildiyi təhsil ocağı* xoşbəxt məktəbdir. Bununla şagirdlər məktəbdə tədrisdən əlavə, eyni zamanda aktiv, maraqlı və sosial yönümlü bir mühitdə olmaq istədiklərini bildirmişlər. Onlar sinifdən kənarda da öyrənmək, özlərini ifadə etmək, öz istedadlarını nümayiş etdirmək, habelə qrupla birgə işləmək və təqdimatlar etmək istəyirlər. Bunun üçün onları stimullaşdırmaq, həvəsləndimək, bir sözlə konstruktiv rəy verməklə fəaliyyətə sövq etmək yenə də müəllimlərin məsuliyyətidir. Məhz şagirdlərin 20 nəfəri xoşbəxt məktəb deyəndə *ədalətli qiymətləndirmənin aparıldığı*, xüsusən konstruktiv rəyin vurğulandığı məktəb kimi ifadə etmişlər. Digər tərəfdən bəzi şagirdlərin anlayışına görə xoşbəxt məktəb infrastruktur baxımından fərqlənən məktəbdir. Onların ifadə etdiyi xoşbəxt məktəb *girişin kartla olduğu, yad insanların məktəbə girişinə icazə verilmədiyi, bundan başqa hər fənnə aid kabinə, voleybol, basketbol və böyük idman zalı olan, robot otağı, böyük kitabxanası, bufeti, keyfiyyətli yeməkləri olan, güllü-çiçəkli bağçasının, böyük oyun parkının olduğu* məktəbdir.

Burada maraqlı məqam yuxarıda da qeyd olunduğu kimi, baxmayaraq ki, tədqiqat aparılan məktəblərin hər ikisində infrastruktur baxımından müəyyən mənada dəstəklənmişdir. Hətta, bir məktəbin şəraiti digərinə nisbətdə daha yaxşı olduğu görülmüşdür. Ancaq şagirdlər sözügedən kateqoriya başlığı altında yenə də öz təkliflərini vermişlər. Bu təkliflər həm yaradıcı (əlamətdar günlərdə bəzənmiş məktəb, sinifləri dizaynına görə fərqlənən məktəb), həm pozitiv olması, həm də məktəbdə təhlükəsizliyi təmin etmək baxımından faydalıdır. Bütün bunlarla yanaşı tədqiqatda iştirak edən şagirdlərdən bəziləri xoşbəxt məktəbdə münasibətlərin empatiya çərçivəsində qurulmasını qeyd etmişlər ki, bununla onlar *sərbəst geyim, gender məsələsi* kimi məqamlara, inklüziv yanaşmaya diqqət çəkmişlər. Həmçinin, şagirdlər özlərinə qarşı tolerant yanaşma nümayiş etdirməyi, empatiya qurmağı və anlayış göstərməyi, ən əsası da onlarla kommunikasiyanı gücləndirməyi ifadə etmişlər.

Göründüyü kimi, "Sizcə xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?" açıq sualına şagirdlərin verdikləri cavablar QXMÇ sənədinin hər bir kateqoriyasını yenə də müəyyən mənada əhatə etmişdir.

Məktəbdə tədris və öyrənməni əyləncəli edən amillərlə bağlı ünvanlanan suala şagirdlər tərəfindən verilən cavablar təhlil edilmiş və eyni qaydada QXMÇ-si üzrə qeyd olunan kateqoriyalara uyğun təsnif edilmişdir. Nəticələr Cədvəl 10-da təqdim olunmuşdur.

**Cədvəl 10. Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən səbəblər**

| Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir? | | | | |
|---|---|---|---|---|
| **Kateqoriyalar** | **Meyarlar** | **Şagirdlərin cavabları** | **Say** | **Faiz** |
| **İnsanlar** | Dəstəkləyici və əməkdaşlıq münasibətləri *(Şagirdlər, müəllimlər, valideynlər və qəyyumlar, məktəb rəhbərləri və s. arasında pozitiv, dəstəkləyici və əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasıdır. Həmçinin, "hörmətə əsaslanan ünsiyyət", "demokratik məktəb idarəçiliyi" və s. əhatə edir.)* | Üzündə hər zaman təbəssüm olan, enerjili və pozitiv müəllimlərin şagirdlərlə mehriban və xoş rəftarı | 285 | 65,80% |
| **Proses** | **Şən və cəlbedici tədris** *(Şagird mərkəzli öyrənmə metodları ilə öyrənənləri daha çox innovativ yanaşmalar vasitəsilə araşdırmaya, suallar verməyə, problemləri həll etməyə sövq edir, həmçinin şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməyə kömək edir, həmyaşıdlar və qruplarla öyrənmə fəaliyyətlərini də təşviq edir və öyrənmədən həzz almanı yaxşılaşdırır.)* | Oxuyub-öyrənmək əvəzinə, praktiki tətbiq edəcəyimiz dərs (əl işləri hazırlamaq, rəsm çəkmək, maket hazırlamaq, tikiş tikmək, paxlava bişirmək, modelləşdirmək, təcrübələr aparmaq, İKT-nin imkanlarından, resurslardan istifadə etmək və s.) | 241 | 55,66% |
| | | Oyunla tədris | 141 | 32,56% |
| | **Balanslaşdırılmış kurikulumlar** *(Akademik iş yükünün müəllimin tədrisdə planlama etməsinə mane olmaması, sosial-emosional öyrənmə və yumşaq bacarıqların planda yer alması, bundan başqa şagirdlərin öyrənmə motivasiyasını artırmağa kömək edən "dərsdənkənar" fəaliyyətlər də nəzərə alınmalıdır)* | Həyatla inteqrasiya olunan, maraqlı fəaliyyətlərin, texnikaların və metodların əks olunduğu tədris planları | 144 | 33,25% |

Cədvəl 10-a nəzər yetirdiyimiz zaman QXMÇ-nin yalnız iki kateqoriyası üzrə şagird cavablarının təmsil olunduğu müəyyən olunmuşdur. Belə ki, bəzi şagird cavabları "İnsanlar" kateqoriyasında bir meyarla, "Proses" kateqoriyasında isə iki meyarla əhatə olunmuşdur.

433 nəfər şagird arasında keçirilmiş sorğunun nəticələri təhlil edildiyi zaman məktəbdə tədris və öyrənməni əyləncəli edən amillərə dair ən çox qeyd olunan faktor (285 nəfər) *üzündə təbəssüm olan, enerjili və pozitiv müəllimlərin şagirdlərlə mehriban və xoş rəftarını* qeyd etmişlər. Göründüyü kimi, açıq suallara verilən cavablar içərisində ən yüksək göstərici bu cavabda müşahidə olunur və yenə də məktəbdə/sinifdə müəllim amilinin nə qədər əhəmiyyətli olduğunu müəyyən etməyə imkan verir. Bu cavablardan aydın olur ki, şagirdlərin ehtiyac duyduqları, əslində xoş rəftar, pozitiv münasibətdir. Məhz bu münasibət, dəstəkləyici əlaqələr tədris prosesinə həm şagird cəlbini sürətləndirə, həm onların motivasiyasını, həm də öyrənmələrini müsbət mənada təmin etmiş ola bilər.

Növbəti say etibarilə ikinci yerdə olan şagird cavabları 240 nəfəri əhatə etmişdir. Yenə də kifayət qədər sayın əhatə olunduğu görünür və şagirdlər düşünürlər ki, *"oxuyub-öyrənmək əvəzinə, praktiki tətbiq edəcəyimiz dərs (əl işləri hazırlamaq, rəsm çəkmək, maket hazırlamaq, tikiş tikmək, paxlava bişirmək, modelləşdirmək, təcrübələr aparmaq, İKT-nin imkanlarından, resurslardan istifadə etmək və s.) tədrisi onlar üçün əyləncəli və zövqlü* edə bilər. Öyrənmə prosesindən necə həzz alınması ilə bağlı əhəmiyyətli olan bu cavablar təhsil iştirakçısı olan hər kəsə zəruri mesajlar ötürür. Şagird düşüncəsinə görə müsbət emosiyalar və münasibətlərlə yanaşı, şagird mərkəzli yanaşmaların tətbiq olunması da məktəbdə tədrisi əyləncəli və zövqlü edə bilər.

Bundan başqa, bir qrup şagirdlərin ifadə etdikləri isə oyunla öyrənmə olmuşdur. Belə ki, 141 nəfər "*oyunla tədris*" deyərək, oyun vasitəsilə öyrənmənin şagird nəticələrini yaxşılaşdırmaqla yanaşı, həm də onların hərtərəfli inkişafını (idrak, sosial, emosional, fiziki və yaradıcı bacarıqlar da daxil olmaqla) təşviq etdiyini dəyərləndirmişlər.

Digər bir qrup şagirdə (144 nəfər) görə isə "*həyatla inteqrasiya olunan, maraqlı fəaliyyətlərin, texnikaların və metodların əks olunduğu tədris planlari*" amilinin nəzərə alınması məktəbdə tədrisi əyləncəli və zövqlü edə bilər. Belə ki, yuxarıda da qeyd olunduğu kimi, dərsi əyləncəli etmək üçün müəllimin ilk öncə planlaşdırmaya həssas yanaşmasının vacibliyi vurğulanmışdır. Çünki həyatla inteqrasiya olunan dərs modeli müəllimdən həm də yaradıcı olmağı tələb edir. Bu cavabı verməklə şagirdlər məzmunla yüklənmək istəmədiklərini, əksinə öyrəndiklərini həyatla inteqrasiya edərək sevincli öyrənmə nümayiş etdirmək istəklərini bildirmişlər.

Beləliklə, nəticələrin ümumiləşdirilməsi göstərir ki, QXMÇ sənədinə əsasən hər açıq suala verilən cavab sıralamasında "İnsanlar" kateqoriyası ilk sırada qərarlaşmışdır. Daha sonra "Proses", "Məkan" və "Prinsiplər" kateqoriyaları üzrə cavablar paylanmışdır. Bu sıralamadan aydın olmuşdur ki, ümumilikdə şagirdlərin məktəbdə ən çox dəyər verdikləri amil şəxslərarası münasibətlər anlayışıdır. Belə ki, məktəbdə həm sağlam psixoloji mühitin yaradılması, həm effektiv öyrənməyə dəstək, həm əməkdaşlıq, qarşılıqlı dəstək və komanda ruhunun formalaşdırılması, həm də əxlaqi dəyərlərin formalaşdırılması baxımından tərəflər arası münasibətlər sağlam əsaslar üzərində qurulmalıdır. Daha sonra ikinci yerdə duran və sayca çoxluq təşkil edən digər amil isə "Proses" kateqoriyasına aiddir. Sözügedən kateqoriya üzrə şagird cavabları məktəbdə tədris və öyrənmə təcrübələrini həmçinin, tədris proqramlarını, qiymətləndirmə sistemlərini təkmilləşdirmək baxımından əhəmiyyətli mesajlar verməkdədir.

## Müzakirə

Tədqiqat çərçivəsində toplanmış datanın təhlilindən əldə olunan nəticələrin müzakirəsi bu bölmədə təsvir edilmişdir. Tədqiqatın məqsədi məktəbdə şagirdlərin xoşbəxtlik səviyyəsini və buna təsir edən amilləri müəyyən etmək idi. Ümumi olaraq nəticələrə nəzər yetirildiyi zaman

şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayışlarının yüksək olduğu müşahidə olunmuşdur. Bu, məktəbin sağlam psixososial mühit yaratdığını, şagirdlərin məktəbdə özlərini dəyərli və dəstəklənmiş hiss etdiklərini göstərən müsbət hal kimi qiymətləndirilə bilər. Bundan başqa, tədqiqatda şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin cins dəyişəni baxımından statistik olaraq fərqlənmədiyi müşahidə olunmuşdur. Digər bir ifadə ilə, nəticələr məktəblilərin cinsi onların məktəb xoşbəxtliyinə dair qavrayışlarında hər hansı bir fərqliliyin olmadığını göstərir. Bu nəticə mövzu ilə əlaqəli müxtəlif tədqiqatçılar tərəfindən həyata keçirilmiş araşdırma nəticələri ilə bənzərlik təşkil edir (Agustina, 2018; López-Pérez və Fernández-Castilla, 2018; Lyubomirsky və Lepper, 1999; Mahon və digərləri, 2005; Mohd Hashim və Mohd Zaharim, 2020; Natvig və digərləri, 2003; Özdemir və digərləri, 2021; Sezer və Can, 2019; Thoilliez, 2011; Yalçın və digərləri, 2022; Yar Yıldırım və Turaç, 2020). Məktəb xoşbəxtliyinə görə kişi və qadın şagirdlər arasında fərqliliyin olmaması məktəbdə gender bərabərliyi baxımından balanslı və ədalətli bir mühitin olduğunu göstərə bilər. Ancaq onlara təqdim olunan açıq suallarda şagird cavabları içərisində cinsə görə ayrıseçkiliyə məruz qaldıqları, genderə əsaslanan ədalətsizlik kimi neqativ hallara məruz qaldıqları da ifadə olunmuşdur. Bununla qeyd etmək olar ki, şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin cins dəyişəni baxımından fərqliliyi müşahidə olunmasa da, açıq suallarda vurğulanan gender ayrıseçkiliyi halları məktəb mühitində spesifik neqativ təcrübələrin mövcudluğuna işarə edir.

Bundan əlavə, tədqiqat nəticələrində şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin sinif dəyişəni baxımından statistik olaraq fərqləndiyini və bu fərqin daha aşağı siniflərdə təhsil alan şagirdlərin lehinə olduğu görülmüşdür. Bu tapıntı başqa tədqiqatlarla da üst-üstə düşür (Badri və digərləri, 2018; Giacomoni və Hutz, 2008; López-Pérez və Fernández-Castilla, 2018; Mertoğlu, 2020; Thoilliez, 2011; Uusitalo-Malmivaara, 2014; Yar Yıldırım və Turaç, 2020). Belə ki, müvafiq tədqiqatlarda da sinif səviyyəsi artdıqca şagirdlərin məktəb xoşbəxtliyi səviyyəsinin azaldığı

nəticələri əldə olunmuşdur. Sinif səviyyəsi yüksəldikcə şagirdlərin akademik cəhətdən məsuliyyətlərinin də artdığı qeyd oluna bilər. Şagirdlər yuxarı siniflərə keçdikcə, yaşları artdıqca dərslərin çətinlik səviyyəsinin artması və akademik nailiyyətlərin imtahanlar ilə ölçülməsi kimi faktorlar onların daha çox stres yaşamalarına səbəb ola bilər. Yuxarı sinif şagirdləri daha çox akademik nailiyyətə fokuslanır, bu da onlarda daha çox stres və təşvişin ortaya çıxmasına səbəb ola bilir. Ancaq uğurlu olmağa fokuslanan şagird onun daxili motivasiyasının yüksək olmasına müsbət təsir edən digər faktorları gözdən kənara qoya bilər. Əlavə olaraq, şagirdlər yuxarı siniflərə keçdikçə həm məktəbin, həm də ailənin şagirddən gözləntiləri daha çox olur ki, bu da onların üzərinə daha çox məsuliyyət qoyur. Nəticə etibarilə, sadalanan faktorlar şagirdlərin xoşbəxtliyinə neqativ yöndə təsir göstərə bilər.

Tədqiqatda həmçinin, şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin oxuduğu məktəbin yerləşdiyi ərazi dəyişəni baxımından statistik olaraq fərqləndiyi də müşahidə olunmuşdur. Bu nəticəni dəstəkləyən müxtəlif tədqiqatlar vardır. Belə ki, Natvig və digərləri (2003) və Holder və Coleman (2009) tərəfindən həyata keçirilən araşdırmaların nəticələri də göstərmişdir ki, məktəbin yerləşdiyi ərazi dəyişəni məktəb xoşbəxtliyinə təsir edən amildir. Digər tərəfdən, Mohd Hashim və Mohd Zaharim (2020) tərəfindən həyata keçirilmiş tədqiqat nəticələri isə məktəbin yerləşdiyi ərazi dəyişəninin şagirdlərin xoşbəxtliyi ilə əlaqəli olmadığını göstərmişdir.

Şagirdlərin məktəb xoşbəxtliyinə dair düşüncələrinin onların təhsil aldığı müəssisənin yerləşdiyi əraziyə görə dəyişiklik göstərməsi bir neçə amil ilə izah oluna bilər. Şəhər məktəblərində rəqabətin daha yüksək olması ehtimalı vardır. Bu da şagirdlərin məktəbdə özlərini daha çox təzyiq altında hiss etmələrinə, stres yaşamalarına və özlərinə inam hissinin az olmasına səbəb ola bilər. Bundan əlavə şəhər məktəblərində şagird kontingenti daha fərqlidir (müəyyən mənada sosial-mədəni və iqtisadi cəhətdən zənginlik dərəcəsində fərqliliklər vardır). Habelə, imkanların və resursların daha geniş olması da onların ehtiyaclarına, həmçinin gözləntilərinə müəyyən mənada

təsir göstərə bilər. Nəticə etibarilə, sadalanan faktorlar şagirdlərin məktəbdə xoşbəxtliyini azaldan amillər sırasındadırlar.

Kənd mühitində isə şagird kontingentinin əhatə dairəsi çox hallarda kənd ərazi ilə məhdudlaşır. Kənd mühitində icma anlayışının daha geniş yayıldığı qeyd oluna bilər. Bu çərçivədə insanların bir-birilərini uzun müddət tanıma fürsətləri daha çoxdur və bu da sosial münasibətlərin dərinliyinə müsbət təsir göstərə biləcək bir faktor olaraq dəyərləndirilə bilər. Kənd məktəblərində şagirdlər və müəllimlər arasında münasibətlərin dərinliyi və qurulan əlaqələr şagirdlərin özünə inamına, məktəbə və məktəblə bağlı bütün maraqlı tərəflərə duyulan güvənin dərəcəsinin yüksək olmasına təsir göstərə bilər. Bu səbəbdən də kənd məktəblərindəki şagirdlərin məktəb xoşbəxliyinə dair qavrayışları daha yüksək ola bilər.

Digər açıq sualların təhlili isə QXMÇ-nə əsaslanan kateqoriyalar üzrə aşağıda təqdim olunmuşdur. Belə ki, QXMÇ sənədinə uyğun əksər dəyişənlərin şagirdlər tərəfindən dəyərləndirildiyi müəyyən olunmuşdur.

**İnsanlar**

Bu kateqoriya üzrə tapıntılar göstərir ki, sinif yoldaşları ilə əyləncəli vaxt keçirmək, bir-birləri ilə mehriban davranmaq, ən yaxın dostları ilə ünsiyyətdə olmaq şagirdlərin məktəbdə özünü xoşbəxt hiss etmələrinin səbəbləri içərisində çoxluq təşkil etmişdir. Qeyd olunan bu faktorlar məktəbdə sosial qarşılıqlı əlaqələrin, habelə, şəxslərarası münasibətlərin əhəmiyyətini iddia edən digər tədqiqatlarla uyğundur (Badri və digərləri, 2018; Díaz, 2019; Göksoy, 2017; Gramaxo və digərləri, 2023; Greco və Ison, 2014; Fakhri və digərləri, 2022; Holder və Coleman, 2009; Mertoğlu, 2020; Nguyen və digərləri, 2024; Salmon, 2016; Uusitalo-Malmivaara, 2014; Yalçın və digərləri, 2022). Göründüyü kimi, məktəb icmasının üzvləri (müəllim-şagird, şagird-şagird və s.) arasında paylaşılan müsbət münasibət tərəflərin özünə inamlı və motivasiyalı olmalarına şərait yaradır. "Şahin" hərbi-idman oyunlarında, intellektual yarışlarda, tədbirlərdə iştirak edib uğur

qazanmaq cavabları ilə şagirdlərin “mən bacararam” düşüncəsinə sahib olduqlarını və bundan xoşbəxt olduqlarını ifadə etmişlər. Əksini yaşayan şagirdlər bundan çox məyus olduqlarını və mənlik anlayışının yaxşılaşmasına ehtiyac duyduqlarını bildirmişlər. Şagirdləri məktəbdə məyus edən səbəblər içərisində uşaqların bir-biri ilə kobud rəftarı, qeyri-etik hərəkət və bullinq etmələri çoxluq təşkil etmişdir. Məktəb mühitində bullinq mövcud sosial problem olaraq qalmaqdadır. Belə ki, məktəbdə şagirdlər arasında bullinqlə bağlı məlumatlar xeyli əvvəldən mövcud olsa da, əsasən, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindən etibarən tədqiqatçıların diqqətini çəkməyə başlamışdır (Atik və Güneri, 2013). Məktəb mühitində bullinq fenomeni son zamanlar ölkəmizin də təhsil müəssisələri üçün səciyyəvi olan və cəmiyyətdə narahatlığa səbəb olan çox ciddi problemlərdən biri olmuşdur. Araşdırma zamanı ölkəmizdə bu mövzuda tədqiqatlar müəyyən sayda olsa da, nəticə etibarilə təhsil ictimaiyyəti üçün bullinq anlayışı statistik cəhətdən öz narahatedici məqamlarının olması ilə diqqət çəkməkdədir (Rustamov və digərləri, 2023). Azərbaycan məktəblərində bullinq, onun təzahür formaları və onunla mübarizə haqqında məlumat çatışmazlığı da mövcuddur (İskəndərli, 2023). İstənilən halda bullinq sosial ədalət prinsiplərinin pozulması deməkdir və bu neqativ hallara cari tədqiqatımızda da rast gəlinmişdir. Məhz şagirdlərin onları məktəbdə məyus edən səbəblər içərisində yoldaşlarının bir-birləri ilə kobud rəftarı, bullinq etmələri və s. faiz etibarilə çoxluq təşkil etmişdir. Hətta, 2022-ci ildə baş tutan Şagirdlərin Beynəlxalq Qiymətləndirilməsi Proqramında (PİSA) Bakı məktəbliləri ilə təmsil olunan Azərbaycanda qızların və oğlanların 21%-i ayda ən azı bir neçə dəfə zorakılıq hərəkətlərinin qurbanı olduqları müəyyən olunmuşdur (OECD, 2023). 2018-ci ildəki nəticələrlə müqayisədə 2022-ci ildə daha az şagirdin zorakılığa məruz qaldığı məlum olsa da, ancaq məktəblərdə şagirdlərin istər həmyaşıdları tərəfindən, istərsə də yuxarı sinif şagirdləri tərəfindən özlərinə qarşı zorakılıq hərəkətlərinin qurbanı olmaları ilə bağlı məyus edici faktorlar hazırki tədqiqatımızda da yüksək faiz göstəricisi ilə fərqlənməkdədir. Göstəricisi yüksək olan daha bir məyus edici səbəb

məktəbdə uşaqların nəzakətsiz davranışları (dərsi pozması, müəllimi əsəbləşdirmələri, bufetdə növbə olmaması, parta, pəncərəni sındırması və s.) olmuşdur. Bu nəticələr, müəllimlərə hörmətsizlik, dərsdə diqqətsizlik, aqressiv davranışlar, növbə mədəniyyəti olmayan şagirdlər və s. kimi sinifdə ən çox rast gəlinən problemlər orta məktəb şagirdlərinin arasında sinif problemi davranışlarının səbəblərini araşdıran Iqbal və Zahoor (2024) tərəfindən aparılmış tədqiqatla da dəstəklənir (Iqbal və Zahoor, 2024). Hər iki tədqiqatda oxşar nəticələrin əldə olunmasını hər iki sorğu iştirakçılarının da ifadə etdiyi kimi dərsdə müəllim mərkəzli təlimə daha çox üstünlük verilməsi ilə əlaqələndirmək olar. Belə ki, hər iki tədqiqat nəticələrində məktəbdə şagirdlər məyus edən səbəblərdən biri kimi onların maraqlarına uyğun olmayan, əyləncəli keçirilməyən, çətin anlaşılan, resurslardan az istifadə olunan dərslərin olduğu, çoxlu ev tapşırıqlarının, neqativ rəylərin verildiyi və s. bildirilmişdir. Dolayısı ilə tədqiqatda iştirak edən şagirdlər içərisində onlarla nəzakətsiz davranan, qışqıran, onları cəzalandıran, ayrıseçkilik edən müəllimlərə sahib olmaqdan məyus olduqlarını ifadə edənlərin də sayı çoxluq təşkil etmişdir (Göksoy, 2017; Gramaxo və digərləri, 2023). Odur ki, tədqiqatın nəticələrinə nəzər yetirdiyimiz zaman xoşbəxt məktəb deyəndə şagirdlərin çoxu aidiyyatı kateqoriya başlığı altında müəllimlər və şagirdlərin (məktəb rəhbəri ilə, müəllimlərin bir-birləri ilə, valideynlərlə) bir-birləri ilə mehriban, səmimi, nəzakətli olduğu, bir-birlərinə dəstək olduğu, qarşılıqlı hörmətə əsaslanan, qaydaların tətbiq olunduğu, demokratik məktəb idarəçiliyi və pozitiv nizam-intizamın olduğu məktəbi qeyd etmişlər. Bu tapıntılar Calpın (2020) xoşbəxt məktəblə bağlı araşdırmasına daha yaxındır (Calp, 2020). Xoşbəxt məktəbdə üzündə hər zaman təbəssümü ilə, enerjili və pozitiv əhvalı, şagirdlərlə mehriban və xoş rəftarı ilə diqqət çəkən müəllim xoşbəxt müəllimdir. Belə müəllimlərə sahib olmaq şagirdləri xoşbəxt edir, çünki müəllimin bir təbəssümü şagirdlərin öyrənməsinə birbaşa müsbət təsir göstərir (Badri və digərləri, 2018; Gramaxo və digərləri, 2023; Nguyen və digərləri, 2024; Salmon, 2016; Van de Wetering və digərləri, 2010).

**Proses**

Şagirdlərin öyrənməsinə təsir göstərən digər amillərdən tədqiqat nəticələrində qeyd olunduğu kimi ilk sıralarda dərsin əyləncəli keçirilməsi, öyrəndiklərini praktiki tətbiq edə biləcəkləri dərslər (əl işləri hazırlamaq, rəsm çəkmək, maket hazırlamaq, tikiş tikmək, paxlava bişirmək, modelləşdirmək, təcrübələr aparmaq, İKT-nin imkanlarından, resurslardan istifadə etmək və s.) və oyunla tədris yer almaqdadır. Əyləncəli və cəlbedici tədris şagirdləri məktəbdə xoşbəxt hiss etdirir ki, bu da Xoşbəxt Məktəblər Çərçivə sənədinin (UNESCO, 2016) nəticələrinə uyğundur. Bundan başqa əldə olunan bu nəticə aparılan digər tədqiqatlarla da dəstəklənir (Calp, 2020; Fidan, 2020; Fidan, 2023; Nguyen və digərləri, 2024; Sezer və Can, 2018; Yalçın və digərləri, 2022). Dərsdənkənar fəaliyyətlərin, siniflər arası yarışların, şagirdlərin əl işlərindən ibarət sərgilərin, iməcliklərin və də şagirdlərin öyrənməsinə müsbət təsirləri elə şagirdlərin perspektivindən dəyərləndirilmişdir. Hətta müəllimlərlə birgə gəzintilərin təşkil olunmasını qeyd edən şagirdlər bir komanda kimi öyrənməyin vacibliyinə vurğu etmişlər. Bu nəticələr UNESCO (2014) tərəfindən təqdim olunmuş "Xoşbəxt Məktəblər Sorğusu"ndan istifadə olunan başqa bir araşdırma nümunəsində (Gramaxo və digərləri, 2023) qiymətləndirilməsə də, Xoşbəxt Məktəblər Çərçivə sənədində (UNESCO, 2016) qeyd olunmuş və şagirdlərin xoşbəxtliyinə töhfə verən faktorlardan biridir. Bundan başqa şagirdlərin, məktəbdə asudə vaxtlarının səmərəli təşkil olunmasının (hobbi otağı, rəqs, musiqi, rəsm, şahmat otaqlarının olması, kofe içmək, əylənmək üçün maraqlı otaqların olduğu, məktəbin futbol klubunun olduğu) onların öyrənməsini dəstəklədiyini qeyd etmələri də digər tədqiqat nəticələri ilə uyğunluq təşkil etmişdir (Sezer və Can, 2019; Uusitalo-Malmivaara, 2014; Van de Wetering və digərləri, 2010). Əlavə olaraq, şagirdlərin öyrənmə prosesi ilə bağlı diqqət çəkdikləri başqa bir məqam həyatla inteqrasiya olunan, maraqlı fəaliyyətlərin, texnikaların və metodların əks olunduğu tədris planlarına ehtiyacın olmasıdır (Gramaxo və digərləri, 2023). Qeyd edilməlidir ki, tədqiqatda iştirak edən şagirdlər yalnız

öyrənmə prosesinin necə təşkil olunması deyil, eyni zamanda bu prosesin harada baş verməsi ilə də bağlı düşüncələrini də paylaşmışlar.

**Məkan**

Şagirdlərə görə xoşbəxt məktəb məkan baxımından geniş, rahat, təhlükəsiz, dizaynı ilə diqqəti cəlb edən yer olmalıdır. Hansı ki, orada hər fənnə aid kabinə, voleybol, basketbol və böyük idman zalı, robot otağı, böyük kitabxanası olmalı, keyfiyyətli yeməkləri olan böyük bufeti olmalı, məktəbə giriş kartla olmalı və yad insanların məktəbə girişinə icazə verilməməlidir. Həmçinin, böyük bağçası və oyun parkı olmalıdır ki, şagirdlər dərsdən sonra və ya fasilələrdə səmərəli vaxt keçirsinlər (Döş, 2013; Gramaxo və digərləri, 2023; Nguyen və digərləri, 2024; Talebzadeh və Samkan, 2011). Gramoxo və digərlərinin (2023) apardıqları tədqiqatdan fərqli olaraq nümunəmizdəki şagirdlər tərəfindən müəyyən mənada qiymətləndirilən təhlükəsiz məktəb anlayışı XMÇ perspektivindən də xoşbəxt məktəbə töhfə verən faktorlardan biri olmuşdur (UNESCO, 2016). Bundan başqa respondentlər məktəbin bəzi yerlərindəki natəmizlik (sinfimizin natəmiz halları, gül-çiçəyin olmaması, ayaq yolunun natəmiz olması, orada pis vərdişlər), bufetdə satılan ərzaqların qiymətlərinin baha olması hallarının onları məyus etdiyini bildirməklə, dolayısı ilə Xoşbəxt Məktəblər Çərçivə sənədində (UNESCO, 2016) uyğun olaraq xoşbəxt məktəbdə sağlamlıq şəraitinin, qidalanmanın və gigiyenik baxımdan hər tərəfin təmiz və yüksək səviyyədə olmasına vurğu etmişlər.

**Prinsiplər**

Şagirdlərin məktəbdə özünü xoşbəxt hiss etmələri üçün daha bir ehtiyac duyduqları faktor fərqliliklərə hörmətlə yanaşılması olmuşdur. Bu çərçivədə məktəbli forması deyil də, sərbəst geyim formasına izacə verilməsinə, özlərinə xoş gələn saç düzümündə məktəbə gəlməyə və gender məsələsi kimi məqamlara hörmətlə yanaşma nümayiş etdirməyi bildirmişlər (Döş, 2013).

## Nəticə

Məktəb xoşbəxtliyi ilə bağlı şagirdlərin qavrayışlarını araşdıran bu tədqiqatın nəticələrinə əsasən belə qənaətə gəlmək olar ki, tədqiqatın aparıldığı Qazax-Tovuz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən dövlət ümumi təhsil müəssisələrində,

- ✓ şagirdlərin məktəb xoşbəxtliyi barədə qavrayışlarının ümumi göstəriciləri yüksək səviyyədədir;
- ✓ cins dəyişəni üzrə şagirdlərin məktəb xoşbəxtliyi ilə bağlı qavrayışlarında statistik olaraq əhəmiyyətli fərqlilik yoxdur;
- ✓ şagirdlərin məktəb xoşbəxtliyi barədə qavrayışlarında məktəbin yerləşdiyi ərazi dəyişəni baxımından statistik olaraq fərqlilik göstərmişdir. Bu fərqlilik aşağı siniflərdə təhsil alan şagirdlərin lehinə olmuşdur;
- ✓ şagirdlərin məktəb xoşbəxtliyi barədə qavrayışlarının onların təhsil adlıqları sinif dəyişəni baxımından aparılmış "One-Way ANOVA" nəticələrinə görə 5, 6, 7, 8 və 9-cu siniflər üzrə fərqlilik vardır. Belə ki, sinif səviyyəsi artdıqca xoşbəxtlik səviyyəsi azalmışdır.

Belə nəticəyə gələ bilərik ki, nümunə götürülmüş dövlət ümumi təhsil müəssisələrində uşaqların əksəriyyəti məktəbdə özlərini yüksək dərəcədə xoşbəxt hiss etmişlər. Bununla yanaşı, sinif səviyyəsinin artdıqca şagirdlərin məktəbdə xoşbəxtlik səviyyəsinin azaldığı və bəzi şagirdlərin məktəbdə özlərini məyus hiss etmələri də aşkarlanmışdır. Müxtəlif təhsil səviyyələrindən (5, 6, 7, 8 və 9-cu siniflər) olan 433 nəfər şagirdin iştirak etdiyi tədqiqatın əsas nəticələri göstərir ki, şagirdlərin bəziləri üçün məktəbdə xoşbəxtlik əsasən dostlar, sinif yoldaşları, müəllimlərlə olan münasibətləri ilə bağlıdır və müvafiq olaraq, "İnsanlar" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün dərsdə aktiv iştirak etməklə, müəllimləri tərəfindən təriflənməklə və maraqlarına uyğun fəaliyyətlərlə bağlıdır və müvafiq olaraq, "Proses" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün isə məktəbin kitabxanasında vaxt keçirmək və məktəbli forması geyinməklə bağlıdır ki, bununla onlar "Məkan" və "Prinsiplər" kateqoriyalarına istinad etmişlər.

Digər tərəfdən, məktəbdə onları məyus edən faktorlara gəldikdə şagirdlərin bəziləri üçün əsasən uşaqların bir-birləri ilə kobud rəftarı, nəzakətsiz davranışları, habelə müəllimlərin onlarla nəzakətsiz davranışları, məktəbdə zorakılıq və s. yenə də münasibətlərlə bağlı olaraq, "İnsanlar" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün əyləncəli keçirilməyən dərslərdə iştirak etmək, müəllimləri tərəfindən təriflənməmək və ev tapşırığları ilə yüklənmək və s. tədrislə bağlı olaraq, müvafiq olaraq, "Proses" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün isə məktəbin bəzi yerlərində natəmizlik və məktəbli forması geyinməklə bağlıdır ki, bununla onlar "Məkan" və "Prinsiplər" kateqoriyalarına istinad etmişlər.

Xoşbəxt məktəbi təsvir edən şagirdlərin bəziləri üçün müəllim və şagirdlərin bir-birlərinə mehriban, nəzakətli olduğu, həmçinin qarşılıqlı hörmətə əsaslanan və s. münasibətlərlə bağlı olaraq "İnsanlar" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün əyləncəli keçirilməyən dərslərdə iştirak etmək, müəllimləri tərəfindən təriflənməmək və ev tapşırıqları ilə yüklənmək və s. tədrislə bağlı olaraq, müvafiq olaraq, "Proses" kateqoriyasına istinad etmişlər. Bəziləri üçün isə xoşbəxt məktəbin xüsusiyyətləri içərisində məktəbli forması deyil də, sərbəst geyimdə məktəbə gəlmək, ayrı-seçkilik edilməmək yer almaqdadır ki, bununla onlar "Məkan" və "Prinsiplər" kateqoriyalarına istinad etmişlər.

Məktəbdə tədris və öyrənməni əyləncəli edənlərdən ilk olaraq, şagirdlər üzündə təbəssüm olan pozitiv müəllimlərin onlarla xoş rəftarının vacibliyini qeyd edərək, yenə də müvafiq olaraq, "İnsanlar" kateqoriyasına istinad etmişlər. Digər tərəfdən şagird mərkəzli öyrənmə metodları ilə dərslərin zənginləşdirilməsi, həyatla inteqrasiya olunan, bacarıqyönümlü fəaliyyətlərin yer aldığı, oyunla tədrisin əhəmiyyət kəsb etdiyi cavabları ilə şagirdlər "Proses" kateqoriyasına istinad etmişlər.

QXMÇ sənədində qeyd olunan meyarlar ilə tədqiqatda iştirak edən şagirdlərin məktəb xoşbəxtliyi ilə bağlı cavabları arasında müəyyən paralellərin olduğu müşahidə olundu. Belə ki,

“İnsanlar” kateqoriyası üzrə hər üç dəyişən (Dəstəkləyici və əməkdaşlıq münasibətləri, Fiziki və sosial-emosional rifah və Müsbət münasibət və atributlar), “Proses” kateqoriyası üzrə hər üç dəyişən (Balanslaşdırılmış kurikulumlar, Şən və cəlbedici tədris və Bütöv və çevik qiymətləndirmələr), “Məkan” kateqoriyası üzrə iki dəyişən (Təhlükəsiz, sağlam, əlçatan və dayanıqlı infrastruktur və obyektlər və Funksional və inklüziv məkan dizaynları), “Prinsiplər” kateqoriyası üzrə isə bir dəyişən (Fərqlərə hörmət və müxtəlifliyin və bərabərliyin əhatə olunması) olmaqla, təmsil olunmuşlar. Bununla da, QXMÇ-si üzrə 12 dəyişəndən 9-nun əhatə olunduğu müəyyən edilmişdir ki, 9 dəyişənin açıq suallar üzrə paylanmasında əsasən “İnsanlar”, daha sonra “Proses” kateqoriyaları aktual olmuşdur. Müəyyən mənada “Məkan” kateqoriyası, bunlara nisbətdə daha az göstəricilər isə “Prinsiplər”kateqoriyasına daxil olmuşdur.

Göründüyü kimi, nümunə iştirakçıları üçün şagirdlərin məktəbdə xoşbəxt olmalarına müsbət təsir edən ilk amil şəxslərarası sağlam münasibətlərin olmasıdır. Sonrakı amil, tədris prosesinin əyləncəli, cəlbedici, maraqlı, şagird ehtiyaclarına uyğun planlaşdırılması və tətbiq olunmasıdır. Növbəti amillər, məktəbin şəraiti, infrastrukturu, sanitar-gigiyenik qaydalara əməl olunması və inklüziya anlayışları olmuşdur.

Belə nəticəyə gəlmək olar ki, insanlar arasındakı münasibətlər, tədrisin/öyrənmənin baş verdiyi proseslər və öyrənmənin birlikdə baş verdiyi məkanlar kimi aspektlər şagirdlərin məktəb xoşbəxtliyinin əsasını təşkil edir.

## Tövsiyələr

Araşdırma nəticələrinə əsasən, şagirdlərin məktəb xoşbəxtliyinə dair qavrayış səviyyələrinin ümumilikdə yüksək olduğu müşahidə olunmuşdur. Bu, ümumilikdə müsbət hal olaraq dəyərləndirilsə də, daha çox xoşbəxt və motivasiyalı olmaları üçün məktəb mühitini şagirdin dostu formatına gətirmək, onların təkliflərinə uyğun olaraq məktəbdə müsbət yöndə dəyişikliklərin edilməsi mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin məktəbdə özlərini daha rahat və

xoşbəxt hiss etmələrinə dəstək ola biləcək bir mühitin formalaşdırılması vacibdir. Bu çərçivədə açıq suallara verilən cavablara istinadən, şagirdlərin xoşbəxt məktəbin göstəriciləri olaraq qiymətləndirdikləri müəllim-şagird münasibətləri, şagird-şagird münasibətləri və s. kimi faktorları əhatə edən dəstəkləyici və əməkdaşlıq münasibətlərinin tənzimlənməsi zəruridir. Belə ki, məktəbdə pozitiv davranışlar təşviq edilməli, empatiya, emosiyaların ifadəsi ilə bağlı fəaliyyətlərə yer verilməli, habelə münaqişələrin dinc yolla və effektiv şəkildə həll edilə biləcəyini öyrədən məşğələlər təşkil edilməli, tərəflər arası dostluq münasibətlərinin qurulması və möhkəmləndirilməsi üçün sosial fəaliyyətlər, oyunlar, məktəbdənkənar layihələr təşkil olunmalıdır.

Bununla yanaşı, şagirdlərin motivasiyasını daha da artırmaq, onlarda öyrənməyə maraq oyatmaq və inkişaflarını dəstəkləmək baxımından şən və cəlbedici tədris mühitinin yaradılması da zəruridir. Bunun üçün tədris resursları və şagirdlərin əl işlərindən ibarət, vizual baxımdan cəlbedici, rəngarəng sinif otaqları yaradıla bilər. İnteraktiv tədris metodları, texnologiya ilə dəstəklənən, real həyatla əlaqəli, şagirdlərin maraqlarına uyğun, onların fikirlərini ifadə etməkdə çəkinmədikləri, səhv etməkdən qorxmadıqları, hər zaman dəstəkləndikləri, özlərini dəyərli hiss etdikləri bir öyrənmə mühiti yaradıla bilər.

Digər tərəfdən, məktəbdə şagirdlərin bir-biriləri ilə kobud rəftarı, nəzakətsiz davranışı, həmçinin, müəllimlərin nəzakətsiz davranışları, bəzi şagirdlərin özünəinamlarının aşağı olması, bəzi dərslərin sıxıcı olması, texnologiyadan məhdud istifadə olunması, praktika tələb edən dərslərin adi sinif otaqlarında tədris olunması, məktəbin ərazisinin bəzi hissələrinin gigiyenik baxımdan təmiz olmaması kimi göstəricilər şagirdlər tərəfindən onları məyus edən faktorlar olaraq bildirilmişdir. Şagirdləri məyus edən səbəbləri nəzərə alaraq, məktəbdə özünə inamı artıran fəaliyyətlər və fərdi dəstək proqramları təklif oluna bilər. Şagird-şagird və şagird-müəllim münasibətlərini gücləndirmək üçün komanda işi, qrup fəaliyyəti və müəllimlərlə daha sıx qarşılıqlı

əlaqə imkanları təmin edilə bilər. Dərslərin daha anlaşıqlı və maraqlı keçməsi üçün müəllimlərin müxtəlif tədris üsullarından istifadə etməsi, texnologiya inteqrasiyasının artırılması, bədən tərbiyəsi, informatika kimi dərslərin müvafiq olaraq uyğun fiziki məkanlarda keçirilməsi üçün şərait yaradıla bilər. Bundan əlavə, məktəbin gigiyena şəraitinin yaxşılaşdırılması ilə şagirdlərin daha sağlam mühitdə təhsil alması təmin oluna bilər.

Tədqiqat nəticələrinə əsasən şagirdlərin oxuduqları sinif dəyişəni baxımından qruplararası fərqliliklərin olduğu və sinif səviyyəsi artdıqca xoşbəxtliklə bağlı qavrayış səviyyələrində azalmaların olduğu müşahidə olunmuşdur. Bu durumun fərqli səbəblərdən qaynaqlandığı təxmin edilir. Belə ki, şagirdlərin sinif səviyyəsi yüksəldikcə yaşlarının artdığı və yeniyetməliyə keçid dövrü, stress səviyyəsinin yüksəlməsi, akademik basqı və məsuliyyətlərinin də artdığı məlumdur. Bu səbəblər onların məktəb xoşbəxtliyi ilə bağlı qavrayış səviyyələrində azalmaların baş verməsi ilə əlaqələndirilə bilər. Bu vəziyyəti tarazlaşdırmaq üçün yuxarı sinif şagirdlərinə stresin idarə edilməsi, psixoloji dəstək və vaxtın idarə edilməsi bacarıqlarını inkişaf etdirən proqramlar təklif edilə bilər. Bundan əlavə, şagirdlərin xoşbəxtlik səviyyəsini artırmaq üçün sosial fəaliyyətlər və qrup işi vasitəsilə məktəbdə xoş vaxt keçirməyə həvəsləndirilməsi tövsiyə oluna bilər.

## Məhdudiyyətlər

Tədqiqatda bəzi məhdudiyyətlər vardır:

- Tədqiqat Qazax-Tovuz Regional Təhsil İdarəsinin tabeliyinə daxil olmuş bir rayonun, bir şəhər və bir kənd məktəbi nümunəsində aparılmışdır. Bu baxımdan əldə olunan nəticələrin ümumiləşdirmək imkanı məhduddur. Odur ki, ayrı-ayrı regionlar, eləcə də bütün ölkə üzrə ümumi mənzərəni görə bilmək üçün daha geniş miqyasda tədqiqatlar aparıla bilər.

- Bu tədqiqat məqsədə uyğun olaraq, yalnız şagirdlərin hesabatlarına istinad etmişdir. Məktəbdə şagird xoşbəxtliyində maraqlı tərəflərdən biri kimi, gələcəkdə müəllimlərin də tədqiqatlara cəlb olunması faydalı ola bilər.

## Ədəbiyyat siyahısı


Acharya, A. S., Prakash, A., Saxena, P., & Nigam, A. (2013). Sampling: Why and how of it. *Indian journal of medical specialties*, *4*(2), 330-333. https://doi.org/10.7713/ijms.2013.0032

Agustina, S. (2018). The younger the happier. *MIMBAR PENDIDIKAN*, *3*(1), 45-58.

Aliyev, K. (2018). Determinants of students' life satisfaction in Azerbaijan: Empirical analyses.

Aliyev, K. & Agayeva, S.(2019*).* Determinants of students' life satisfaction in Azerbaijan: Empirical analyses. *ASERC Journal of Socio-Economic Studies*, *2*(1), 49-61.

Aliyeva, M. M. (2024). *Measuring well-being of university students in Azerbaijan* [Doctoral dissertation].

Atik, G., & Güneri, O. Y. (2013). Bullying and victimization: Predictive role of individual, parental, and academic factors. *School Psychology International, 34*(6), 658-673. https://doi.org/10.1177/0143034313479699

Badri, M., Al Nuaimi, A., Guang, Y., Al Sheryani, Y., & Al Rashedi, A. (2018). The effects of home and school on children's happiness: A structural equation model. *International Journal of Child Care and Education Policy*, *12*(1), 17. https://doi.org/10.1186/s40723-018-0056-z

Başaran, M., & Özçelik, A. D. Ö. (2020). Rural Children's Perceptions of Happiness: What is Happiness? How Do They Make You Happy? How Can They Be Happy?. *Cukurova University Faculty of Education Journal*, *49*(1), 400-429. https://dergipark.org.tr/tr/pub/cuefd

Benditt, T. (1974). Happiness. *Philosophical Studies: An International Journal for Philosophy in the Analytic Tradition*, *25*(1), 1-20.

Bird, J. M., & Markle, R. S. (2012). Subjective well-being in school environments: Promoting positive youth development through evidence-based assessment and intervention. *American Journal of Orthopsychiatry*, *82*(1), 61. https://doi.org/10.1111/j.1939-0025.2011.01127.x

Butt, D. S., & Beiser, M. (1987). Successful aging: A theme for international psychology. *Psychology and Aging*, *2*(1), 87–94. https://doi.org/10.1037/0882-7974.2.1.87

Büyükdüvenci, S. (1993). "Aristoteles'te Mutluluk Kavramı". *Felsefe Dünyası*, *9*, 41–45.

Büyüköztürk, Ş., Kılıç Çakmak, E., Akgün, Ö. E., Karadeniz, Ş., & Demirel, F. (2012). *Örnekleme yöntemleri.*

Calp, Ş. (2020). Peaceful and happy schools: how to build positive learning environments?. *International Electronic Journal of Elementary Education*, *12*(4), 311-320.

Certel, Z., Bahadır, Z., Saracaloğlu, A. S., & Varol, R. (2015). Lise öğrencilerinin öz-yeterlikleri ile öznel iyi oluş düzeyleri arasındaki ilişkinin incelenmesi. *Eğitim ve Öğretim Araştırmaları Dergisi, 4*(2), 307-318. https://jret.elapublishing.net/makale/7154

Chechi, V. K., Prasad, B., & Mandoli, S. (2024). Scientific Validation of Student Competency Scale (SCS) Questionnaire for Assessing the Impact of Happiness Curriculum in Indian Government Schools. *International Journal of Experimental Research and Review*, *43*, 93-106. https://doi.org/ijerr.2024.v43spl.007

Cheon, H., & Lim, S. (2020). Pursuing sustainable happiness through participation in exercise for South Korean students: Structural relationships among exercise, mental health factors, school satisfaction, and happiness. *Sustainability*, *12*(9), 3797. https://doi.org/10.3390/su12093797

Creswell, J. W., & Creswell, J. D. (2018). *Research design: Qualitative, quantitative, and mixed methods approaches* (5th ed.).

Creswell, J. W., & Guetterman, T. C. (2018). *Educational Research: Planning, Conducting, and Evaluating Quantitative and Qualitative Research* (6th ed.).

Datu, J. A. D., King, R. B., & Valdez, J. P. M. (2017). The academic rewards of socially-oriented happiness: Interdependent happiness promotes academic engagement. *Journal of school psychology*, *61*, 19-31. https://doi.org/10.1016/j.jsp.2016.12.004

Demir, Ü. (2020). Aile Özellikleri ve Mutluluk: Çanakkale'de Lise Öğrencileri Üzerine Bir Araştırma. *Kastamonu Education Journal*, 28(3), 1296-1306. https://doi.org/10.24106/kefdergi.3855

Díaz, A. S. L. (2019). Happiness at school¿ What do the children say?. *Dilemas Contemporáneos: Educación, Política y Valore*, *6*(2).

Diener, E. (1984). Subjective well-being. *Psychological Bulletin*, *95*(3), 542–575. https://doi.org/10.1037/0033-2909.95.3.542

Diener, E., Suh, E. M., Lucas, R. E., & Smith, H. L. (1999). Subjective well-being: Three decades of progress. *Psychological Bulletin*, *125*(2), 276. https://doi.org/10.1037/0033-2909.125.2.276

Diener, E. (2000). Subjective well-being: The science of happiness and a proposal for a national index. *American Psychologist*, *55*(1), 34–43. https://doi.org/10.1037/0003-066X.55.1.34

Döş, İ. (2013). Mutlu okul. *Eğitim ve Bilim*, *38*(170).

Dös, I. (2023). Relationship between Happy School, General Self Efficacy, Academic Self-Efficacy and Life Satisfaction. *European Journal of Educational Management*, *6*(1), 31-44. https://doi.org/10.12973/eujem.6.1.31

Elayyan, M. N. (2017). *Factors Associated with Student Happiness at Wesgreen International School, Sharjah, United Arab Emirates* [Master's thesis, The British University in Dubai].

Eloff, I. (2008). In pursuit of happiness: How some young South African children construct happiness. Journal of psychology in Africa, 18(1), 81-87. https://doi.org/10.1080/14330237.2008.10820174

Fakhri, N., Muchlis, N. S., Mansyur, A. Y., & Buchori, S. (2022). The Concept of Happiness in Elementary School Children. In *Proceedings of the 2nd International Conference on Psychological Studies (ICPsyche 2021)* (pp. 263-273). https://doi.org/10.5220/0010811200003347

Fidan, M. (2020). Mutlu okulun bileşenleri. *Eğitim ve Toplum Araştırmaları Dergisi*, *7*(1), 107-123.

Fidan, M. (2023). Happy Class. *Disiplinlerarası Eğitim Araştırmaları Dergisi,* *7*(16), 426-439. https://doi.org/10.57135/jier.1346663

Giacomoni, C. H., & Hutz, C. S. (2008). Multidimensional life satisfaction scale for children: development and validation studies. *Estudos de Psicologia (Campinas),* *25*(1), 25-35. https://doi.org/10.1590/S0103-166X2008000100003

Giacomoni, C. H., Souza, L. K. D., & Hutz, C. S. (2014). O conceito de felicidade em crianças. *Psico-Usf*, *19*(1), 143-153.

Glatzer, W. (2000). Happiness: Classic theory in the light of current research. *Journal of Happiness Studies*, *1*(4), 501-511. https://doi.org/10.1023/A:1011550727571

Gramaxo, P., Seabra, F., Abelha, M., & Dutschke, G. (2023). What makes a school a happy school? Parents' perspectives. *Education Sciences*, *13*(4), 375. https://doi.org/10.3390/educsci13040375

Gramaxo, P., Flores, I., Dutschke, G., & Seabra, F. (2023, September). What makes a school a happy school? Portuguese students' perspectives. In *Frontiers in Education* (Vol. 8, p. 1267308). Frontiers Media SA. https://doi.org/10.3389/feduc.2023.1267308

Greco, C., & Ison, M. (2014). What makes you happy? Appreciating the reasons that bring happiness to Argentine children living in vulnerable social contexts. *Journal of latino/latin american studies*, *6*(1), 4-18. https://doi.org/10.3389/feduc.2023.1267308

Göksoy, S. (2017). Situations That Make Students Happy and Unhappy in Schools. *Universal Journal of Educational Research*, *5*(n12A), 77-83. https://doi.org/10.13189/ujer.2017.051312

Hair, J.F., Black, W.C., Babin, B.J., Anderson, R.E., & Tatham, R.L. (2006*). Multivariate data analysis* (6th ed.). Upper Saddle River, NJ: Pearson Education Inc.

Holder, M. D., & Coleman, B. (2008). The contribution of temperament, popularity, and physical appearance to children's happiness. *Journal of Happiness Studies*, *9*, 279-302. https://doi.org/10.1007/s10902-007-9052-7

Holder, M. D., & Coleman, B. (2009). The contribution of social relationships to children's happiness. *Journal of happiness studies*, *10*, 329-349. https://doi.org/10.1007/s10902-007-9083-0

İskəndərli, M. (2023). Məktəblərdə bullinq və kiberbullinq haqqında təsəvvürlər və onlarla mübarizə üsulları. *Azərbaycan məktəbi, 3*(704), 107–116.

Iqbal, Z., & Zahoor, I. (2024). Students' Behavioral Problems in the Classroom and Coping Strategies: Experiences of Secondary School Teachers. *Bulletin of Education and Research*, *46*(1), 107-129.

Ivens, J. (2007). The development of a happiness measure for schoolchildren. *Educational Psychology in practice*, *23*(3), 221-239. https://doi.org/10.1080/02667360701507301

Kebersyukuran, H. A. (2022). The Relationship Between Gratitude and Happiness in Year 12 High School Students. *Psikologia : Jurnal Psikologi, 7*(1). https://doi.org/10.21070/psikologia.v7i0.1688

King, R. B., & Datu, J. A. (2017). Happy classes make happy students: Classmates' well-being predicts individual student well-being. *Journal of school psychology*, *65*, 116-128. https://doi.org/10.1016/j.jsp.2017.07.004

López-Pérez, B., Sánchez, J., & Gummerum, M. (2016). Children's and adolescents' conceptions of happiness. *Journal of Happiness Studies*, *17*, 2431-2455. https://doi.org/10.1007/s10902-015-9701-1

López-Pérez, B., & Fernández-Castilla, B. (2018). Children's and adolescents' conceptions of happiness at school and its relation with their own happiness and their academic performance. *Journal of Happiness Studies*, *19*, 1811-1830. https://doi.org/10.1007/s10902-017-9895-5

Luzuriaga, R. F., Díaz, A. S. L., Sánchez, M. M. M., & Flores, J. F. J. (2017). ¿ Qué hace felices a los niños en la escuela? Conceptos básicos y factores que influyen en la felicidad dentro del contexto escolar. *Dilemas Contemporáneos: Educación, Política y Valores*.

Lyubomirsky, S., & Lepper, H. S. (1999). A measure of subjective happiness: Preliminary reliability and construct validation. *Social İndicators Research*, *46*, 137-155. https://doi.org/10.1023/a:1006824100041

Lyubomirsky, S., King, L., & Diener, E. (2005). The benefits of frequent positive affect: Does happiness lead to success?. *Psychological Bulletin*, *131*(6), 803–855. https://doi.org/10.1037/0033-2909.131.6.803

Mahon, N. E., Yarcheski, A., & Yarcheski, T. J. (2005). Happiness as related to gender and health in early adolescents. *Clinical Nursing Research*, *14*(2), 175-190. https://doi.org/10.1177/1054773804271936

Mertoğlu, M. (2020). Factors affecting happiness of school children. *Journal of Education and Training Studies, 8*(3), 10. https://doi.org/10.11114/jets.v8i3.4674

Mohd Hashim, I. H., & Mohd Zaharim, N. (2020). Happiness among Malaysian adolescents: The role of sociodemographic factors and everyday events. *Sage Open*, *10*(3), 2158244020940695. https://doi.org/10.1177/2158244020940695

Muslikah, M., Sugiharto, D. Y. P., Sugiyo, S., & Sutoyo, A. (2024). Happines at Pesantren: Qualitative Studies on Salafiyah Traditional Islamic Boarding School Student. *Journal of Nonformal Education*, *10*(1), 22-32. . https://doi.org/https://doi.org/10.15294/jone.v10i1.31

Natvig, G. K., Albrektsen, G., & Qvarnstrøm, U. (2003). Associations between psychosocial factors and happiness among school adolescents. *International Journal of Nursing Practice*, *9*(3), 166-175. https://doi.org/10.1046/j.1440-172X.2003.00419.x

Nguyen, N. T. T., Nguyen, T. L., & Tran, L. B. (2024). Private University Students' Perspectives on Happy School: Building a 3P Plus Model Based on the UNESCO 3P Model. *TEM Journal, 13*(3). https://doi.org/10.18421/TEM133-55

Noddings, N. (2003). *Happiness and education.* Cambridge University. https://doi.org/10.1017/CBO9780511499920

OECD (2023), PISA 2022 Results (Volume II): Learning During – and From – Disruption, PISA, OECD Publishing, Paris, https://doi.org/10.1787/a97db61c-en

Oreopoulos, P. (2007). Do dropouts drop out too soon? Wealth, health and happiness from compulsory schooling. *Journal of Public Economics*, *91*(11-12), 2213-2229. https://doi.org/10.1016/j.jpubeco.2007.02.002

O'Rourke, J., & Cooper, M. (2010). Lucky to be happy: A study of happiness in Australian primary students. *Australian Journal of Educational & Developmental Psychology*, *10*, 94-107.

Özdemir, Y., Yılmaz Hiğde, A., & Sağkal, A. S. (2021). İlkokul çocukları için okul mutluluğu ölçeği’nin (İÇİOMÖ) geliştirilmesi: geçerlik ve güvenirlik çalışması. *Milli Eğitim Dergisi, 50*(231), 111-127. https://doi.org/10.37669/milliegitim.745320

Quan, B. H., Yen, N. T. X., Vu, G. T., & Van Son, H. (2023). Several international models of the happy school and recommendation in Vietnam. *Ho Chi Minh City University of Education Journal of Science, 20*(3), 555-566. https://doi.org/10.54607/hcmue.js.20.3.3745(2023)

Rahman, M. M. (2023). Sample size determination for survey research and non-probability sampling techniques: A review and set of recommendations. *Journal of Entrepreneurship, Business and Economics*, *11*(1), 42-62.

Rustamov, E., Nahmatova, U., Rustamova, N., & Aliyeva, M. (2023). Mediating Role of Bullying in the Relationship between Aggression and Adolescents' Resilience. *International Education Studies*, *16*(6), 91-100. https://doi.org/10.5539/ies.v16n6p91

Ryff, C. D., & Keyes, C. L. M. (1995). The structure of psychological well-being revisited. *Journal of personality and social psychology, 69*(4), 719.

Salmon, A. (2016). Happy Schools! A Framework for Learner Well-Being in the Asia Pacific. *UNESCO Bangkok.*

Sapsağlam, Ö., Karabulut, R., & Ekici, İ. (2021). Okul öncesi öğretmenlerinin kariyer uyumlulukları ve çocuklar için kullandıkları mutluluk artırıcı stratejiler arasındaki ilişkinin incelenmesi. *Erken Çocukluk Çalışmaları Dergisi*, *5*(1), 209-227. https://doi.org/10.24130/eccd-jecs.1967202151307

Seligman, M. E., Ernst, R. M., Gillham, J., Reivich, K., & Linkins, M. (2009). Positive education: Positive psychology and classroom interventions. *Oxford Review of Education, 35*(3), 293-311. https://doi.org/10.1080/03054980902934563

Sezer, Ş., & Can, E. (2018). School happiness: Parents' opinion on required qualifications for school happiness. *Educational Administration: Theory and Practice, 24*(1), 191-220.

Sezer, S., & Can, E. (2019). School happiness: A scale development and implementation study. *Eurasian Journal of Educational Research*, *19*(79), 167-190.

Sezer, S., & Can, E. (2020). School Happiness: A Grounded Theory. *Educational Policy Analysis and Strategic Research*, *15*(1), 44-62.

Shoshani, A., Steinmetz, S., & Kanat-Maymon, Y. (2016). Effects of the Maytiv positive psychology school program on early adolescents' well-being, engagement, and achievement. *Journal of School Psychology*, *57*, 73-92. https://doi.org/10.1016/j.jsp.2016.05.003

Soleimani, N., & Tebyanian, E. (2011). A study of the relationship between principals' creativity and degree of environmental happiness in Semnan high schools. *Procedia-Social and Behavioral Sciences*, *29*, 1869-1876. https://doi.org/10.1016/j.sbspro.2011.11.436

Talebzadeh, F., & Samkan, M. (2011). Happiness for our kids in schools: A conceptual model. *Procedia-Social and Behavioral Sciences*, *29*, 1462-1471. https://doi.org/10.1016/j.sbspro.2011.11.386

Tâm, T. T. T. (2021). Happy Schools: Perspectives and Matters of Organization-Pedagogy in School's Building and Development. *International Education Studies, 14*(6), 92-102. https://doi.org/10.5539/ies.v14n6p92

Thoilliez, B. (2011). How to grow up happy: An exploratory study on the meaning of happiness from children's voices. *Child Indicators Research*, *4*, 323-351. https://doi.org/10.1007/s12187-011-9107-5

Toraman, Ç., Aktan, O., & Korkmaz, G. (2022). How Can We Make Students Happier at School? Parental Pressure or Support for Academic Success, Educational Stress and School Happiness of Secondary School Students. *Shanlax International Journal of Education*, *10*(2), 92-100. https://eric.ed.gov/?id=EJ1328706

Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, № 833-IIIQ. (2009). https://e-qanun.az/framework/18343

United Nations Educational, Scientific and Cultural Organization, [UNESCO]. (2016). Happy schools! A framework for learner well-being in the Asia-Pacific

United Nations Educational, Scientific and Cultural Organization, [UNESCO]. (2024). Why the world needs happy schools. https://doi.org/10.1007/978-3-031-17299-1_3099

Uusitalo-Malmivaara, L. (2012). Global and school-related happiness in Finnish children. *Journal of Happiness Studies*, *13*, 601-619. https://doi.org/10.1007/s10902-011-9282-6

Uusitalo-Malmivaara, L. (2014). Happiness decreases during early adolescence—A study on 12-and 15-year-old Finnish students. *Psychology*, *5*(6), 541-555. http://dx.doi.org/10.4236/psych.2014.56064

Ünüvar, D. D. P., Çalışandemir, Y. F., Tagay, Y. Ö., Amini, F. (2015). Okul öncesi dönem çocuklarının mutluluk algısı (Türkiye ve Afganistan Örneği). *Mehmet Akif Ersoy Üniversitesi Eğitim Fakültesi Dergisi, 1*(34), 1-22.

Van de Wetering, E. J., Van Exel, N. J. A., & Brouwer, W. B. F. (2010). Piecing the jigsaw puzzle of adolescent happiness. *Journal of Economic Psychology*, *31*(6), 923-935. https://doi.org/10.1016/j.joep.2010.08.004

Weissberg, R. P., Kumpfer, K. L., & Seligman, M. E. (2003). *Prevention that works for children and youth: An introduction* (Vol. 58, No. 6-7, p. 425). American Psychological Association. https://doi.org/10.1037/0003-066X.58.6-7.425

White, N. P. (2008). *A brief history of happiness*. John Wiley & Sons.

Yar Yıldırım, V., & Turaç, M. (2020). Ortaokul öğrencilerinin ilk hafta mutluluk düzeyleri ile akademik başarıları arasındaki ilişki. *Elektronik Eğitim Bilimleri Dergisi, 9*(17), 57-71. https://dergipark.org.tr/tr/pub/ejedus/issue/55652/707564

Yalçın, A., Kaya Ayten, S., Ayten, N., & Özalp, M. (2022). The Study of primary school students' happıness towards school. *Kapadokya Eğitim Dergisi, 3*(2), 33–47. https://dergipark.org.tr/tr/download/article-file/2726206

Zarei, S. (2013). Investigating the Factors Having Influence on the Student's Happiness: A Survey Between Students of Secondary Schools of Shiraz. *Romanian Review of Social Sciences*, (4).

# ƏLAVƏLƏR (şagird cavablarından nümunələr)

## Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☐ Kişi ■ Qadın

**Oxuduğunuz sinif?** ■ 5-ci sinif ☐ 6-cı sinif ☐ 7-ci sinif ☐ 8-ci sinif ☐ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ■ kənd məktəbi ☐ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 –məyus ☐ 3 – nə xoşbəxt, nə də məyus

■ 4 – xoşbəxt ☐ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Riyaziyyatda məsələlərin həlli tapmaq məni çox xoşbəxt
2. Texnologiya otağında nələrsə düzəltmək.
3. Sinif yoldaşlarımla həyətdə oyun oynamaq.
4. Gülrüz müəllimləri görəndə sevinirəm, xoşbəxt oluram

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Dərslərdən zəif qiymət almaq.
2. Oyunda uduzmaq.
3. Qaçarkən yıxılanda.
4. Bəzi müəllimlərin bizə əl qaldırması

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

1. Bizim məktəbimiz, çünki bizim məktəbdə gülrüz müəllimlər, qayğıkeş müəllimlər, mehriban sinif-yoldaşlarım, böyük məktəb, pufet, texnologiya otağı, idman-zalı. Mən istərdim ki təbiət ~~(...)~~ sinifi, əlavə bir dənə də pufet olsun çünki tənəffüsdə pufet dolur..

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

Mən istərdim ki, musiqi dərsində xorla mahnı oxuyaq, informatika dərsində kompüter otağına gedək, fiziki tərbiyə dərsində uşaq çoxdur deyə arxada olan uşaqlara vaxt çatmır çatsın. Məntiq dərsi əlavə olunsun. Müəllimlər tez-tez oyun oynadırlar buda mənim çox xoşuma gəlir, texnologiya otağında

## Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☒ Kişi ☐ Qadın

**Oxuduğunuz sinif?** ☐ 5-ci sinif ☒ 6-cı sinif ☐ 7-ci sinif

☐ 8-ci sinif ☐ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ☐ kənd məktəbi ☒ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 –məyus ☐ 3 – nə xoşbəxt, nə də məyus

☐ 4 – xoşbəxt ☒ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Müəllimlərin və şagird yoldaşların qayğısı, sevgisi
2. Hər bir fənnə aid xüsusi otaq olması (musiqi, rəsm və s)
3. Hər sinif otağında Heydər Əliyevin, İlham Əliyevin şəkli olması. Azərbaycanın himninin yazılı şəkildə divarda asılmış olması

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin. zəhmət olmasa)**

1. Məktəbdə uşaqların digər uşaqlara qarşı bulling göstərməsi
2. İdman zalı olan koridorda işıqların tez-tez yanıb-sönməsi
3. Uşaqların nizam-intizam qaydalarına riayət etməməsi
4. Tənəffüslərin qısa olması
5. İstədiyimiz geyimdə məktəbə gələ bilməmək

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

Xoşbəxt məktəb yalnız gözəl yeməkxanadan, böyük idman zalından ibarət deyil. Xoşbəxt məktəb olmaq üçün şagird və müəllimlərin xoşbəxtliyi vacibdir. Əgər, müəllim xoşbəxt deyilsə, dərsə elə dərsidə bir o qədər şən keçir. Bəzən insan çox yorulur və bu yorğunluqda insanın xoşbəxt olmasına icazə vermir, bunun üçün məktəb ildə 1-2 dəfə də olsa şagird və müəllimləri gəzintiyə çıxarmalıdır. Müəllim xoşbəxt olduqca şagird, bir növ, xoşbəxt

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

Hər dərsin sonunda mövzu haqqında maarifləndirici sual-cavab keçirilməsi. Bəzən proqramı bitirəndə və ya qabaqda olanda bəzi bölmə haqqında maraqlı və eyni zamanda maarifləndirici oyunlar keçirilməsi

Müəllimin qışqırıb-bağırmaq əvəzinə şagirdlə mülayim rəftar etməsi

# Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☐ Kişi ☑ Qadın

**Oxuduğunuz sinif?** ☐ 5-ci sinif ☑ 6-cı sinif ☐ 7-ci sinif

☐ 8-ci sinif ☐ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ☑ kənd məktəbi ☐ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 –məyus ☐ 3 – nə xoşbəxt, nə də məyus

☑ 4 – xoşbəxt ☐ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Hər kəsin dərsdə gülərüz olması məni xoşbəxt edir.
2. Sevdiyim müəllimlərimi görmək məni xoşbəxt edir.
3. Məktəbimizin maraqlı tarixi, uşaqların dostcanlı olması məni daha çox xoşbəxt edir.
4. İstəyirəm ki, məktəbdə şagirdlərə aid dolablar olsun.

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Uşaqların aşağı siniflərin bəzilərinə kobud davranmaları,
2. Şagirdlərin tapşırıqları, dərsləri tam yerinə yetirə bilməməsi,
3. Məktəbə, təbiətə şagirdlərin ziyan vurması, ağacları qırması məni məyus edir.

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

Məktəbin nizam-intizamı olması, şagirdlərin bir-birlərinə yaxın olması, dərslərə aid səhnələr dərsin maraqlı olması, arasında uşaqlarla, müəllimlərin aralı yaxşı olması, məktəbimizin həyətində yaşıllığın, ağacların çox olması məktəbi daha maraqlı görsəl edir.

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

(dərsin) dərsə aid səhnəciklər yaratmaq, proyektra, dərslə bağlı hekayələr baxmaq, dərslərin maraqlı olması, uşaqlar arasında istilik yaranması, məktəbimizin təmiz, nizam-intizamlı olması, məktəbdə şagirdlərə aid mini dolab olması, kitablarımızın itməməsi üçün onları dolablara qoymaq.

## Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☑ Kişi ☐ Qadın

**Oxuduğunuz sinif?** ☐ 5-ci sinif ☐ 6-cı sinif ☑ 7-ci sinif

☐ 8-ci sinif ☐ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ☐ kənd məktəbi ☑ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 –məyus ☑ 3 – nə xoşbəxt, nə də məyus

☐ 4 – xoşbəxt ☐ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Bəzi müəllimlərin bizə qayğıyla yanaşması.
2. Sinif yoldaşlarımla əyləncəli söhbətlər.
3. Asan qaydar və tapşırıqlar.

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Məni məyus edən Biologiya müəlliminin dərsində bizi çox pis vurmasıdır.
2. Bir məyus edən şey isə o müəllimin bizi dinləməməsi.
3. Birdə sinif yodaşlarım bəzən hörmətsizlik etməsi.

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

Mənim üçün xoşbəxt məktəb müəllimlərin bizi vurmamasıdır. Mən deniyrəm ki, biz hər şeyi edək onlar heç nə etməsin hədəcə bizədə hörmət qoysunlar. Mənim üçün xoşbəxt məktəb dərslərin çox yox amma az olmasıdır. Xoşbəx məktəb uşaqların və müəllimlərin bir-birini anlamasıdır.

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

Biologiya dərsində müəllimi zövqlü və əyləncəli deyil. Belə əyləncəli də bilərki müəllimə gözəl əhval-ruhiyyədə içəri girsin və xoş sözlər deyib dərsə başlaya bilər. Sonra belə bir oyun edə bilərki kağızlara suallar yazıb yəni dərslə bağlı suallar yazıb oyun kimi ola bilər. Amma təhsufki elə deyil.

## Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☐ Kişi ☑ Qadın

**Oxuduğunuz sinif?** ☐ 5-ci sinif ☐ 6-cı sinif ☐ 7-ci sinif

☑ 8-ci sinif ☐ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ☐ kənd məktəbi ☑ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 –məyus ☑ 3 – nə xoşbəxt, nə də məyus

☐ 4 – xoşbəxt ☐ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Sinif yoldaşlarım
2. Bəzi müəllimlərimiz kim ki, dərslərə fərqli və əyləncəli yanaşırlar.
3. Yüksək keyfiyyətli məktəb avadanlıqları və dərslərimizin yaxşı keçilməsi

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Bəzi müəllimlərin uşaqlara qarşı qeyri-etik ifadələr işlədib, ayrı-seçkilik etməsi
2. Bəzən şagirdlərin bir-birinə qarşı kobud davranması
3. Səhər tezdən məktəbə gəlməyimiz və dəyişməyən klassik dərs rejimi

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

Gigiyena qaydalarına daha yaxşı yanaşılması, müəllimlərin uşaqlarla daha mehriban davranması, dərs sisteminin daha maraqlı və əyləncəli olması, fasilə vaxtlarının uzaması, qeyri-etik ifadələrin qadağan edilməsi, telefonları qadağan edilməsi yerinə daha fərqli çarələr tapılması, müəyyən ekskursiya və gəzintilərin təşkil edilməsi, uşaqların kiçik yaşlardan vətənə qarşı sevgiylə böyüdüb, əsl vətəndaş kimi yetişdirilməsi

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

İlk öncə dərslərə fərqli yanaşıb ilk öncə özünü sevdirməyi bacaran müəllimlər, keyfiyyətli məktəb şəraiti, tədbirlər və gəzintilər, dərslərin əyləncəli keçilməsi, məsələn coğrafiya, Azərbaycan dili və tarix müəllimlərimizin bizimlə həm müəllim həm də dost olması

## Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ❑ Kişi ■ Qadın

**Oxuduğunuz sinif?** ❑ 5-ci sinif ❑ 6-cı sinif ❑ 7-ci sinif

❑ 8-ci sinif ■ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ■ kənd məktəbi ❑ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

❑ 1 – çox məyus ❑ 2 –məyus ■ 3 – nə xoşbəxt, nə də məyus

❑ 4 – xoşbəxt ❑ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Məktəbimizin gözəl, səliqəli, təmiz, və geniş həyətinin olması
2. Bütün dərslərdə iştirak edib, əla qiymət almağım
3. Məni xoşbəxt edən mənim ən yaxın dostumun mənlən dost yox, bacı kimi davranmağı 4) Dərsdə yemək yeməyim.

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Üçüncü dərsdən sonra qapıların bağlı olması
2. Bufetlərin balaca olması
3. Mən yaxşı oxuduğuma baxmayaraq, bəzi müəllimlər mənə aşağı bal verməsi. Xahiş edirəm ki, ədalətli olsunlar.

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

Mən qadın olduğuma baxmayaraq, həvəs olduğu üçün istəyirəm ki, məktəbdə futbol kulubunun olması, müəllimlərimiz heç bir uşaq arasında ayrı-seçkiliyin olmaması, məktəbə kitabxana olsa, daha yaxşı olardı, Psixologiya müəllimi olsa da gözəl olardı, Dərslərimiz vaxtında keçirilsin Heç bir dərsimiz boş qalmasın. 9 lar dan birləşib məktəbimizin act zalında tədbirin keçirilməsi özəl günlərdə.

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

Müəllimlər daha aydın, pozitiv, əyləncəli şən dərslərdə fəaliyyə olması təcrübənin olması, texnologiya dərsində əl işlərimiz olması Qısacası məktəbimiz bir az, azca güsürları olmasına baxmayaraq, məktəbimi, müəllimlərimi də çox sevirəm

# Xoşbəxt Məktəblər Sorğusu

**Cinsiniz?** ☐ Kişi ☑ Qadın

**Oxuduğunuz sinif?** ☐ 5-ci sinif ☐ 6-cı sinif ☐ 7-ci sinif ☐ 8-ci sinif ☑ 9-cu sinif

**Təhsil aldığınız məktəb?** ☑ kənd məktəbi ☐ şəhər məktəbi

**Məktəbdə özünüzü nə dərəcədə xoşbəxt hiss edirsiniz?**

☐ 1 – çox məyus ☐ 2 – məyus ☑ 3 – nə xoşbəxt, nə də məyus

☐ 4 – xoşbəxt ☐ 5 – çox xoşbəxt

**Məktəbdə sizi xoşbəxt edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Sevmədiyim müəllimin dərsə gəlməməsi
2. Sevmədiyim müəllimin artıq bizə dərs deməməsi.
3. 

**Məktəbdə sizi məyus edən nədir? (Üç səbəbi qeyd edin, zəhmət olmasa)**

1. Müəllimlərin ayrı-seçkiliyi, (qarşı bildiyim zamandan aşağı qiymət almaq)
2. Dostlarım arasında ayrı-seçkiliyin olması.
3. Nədəsə yanlışlıq etdikdə başqalarının məni ələ salması, gülməsi.
4. Siqaret çəkən kişi müəllimləri

**Sizcə, xoşbəxt məktəbin xüsusiyyətləri/əlamətləri hansılardır?**

1) Səhvimiz olduqda müəllimlərin danlamaq, cəza vermək yerinə səhvimizi başa salmaqları 2) Sinif yoldaşlar arasında səmimi, dürüst olunmalıdır. "Buling" əsla olmamalıdır. 3) Fondpulu və s. kimi şeylər olmamalıdır. 4) Müəllimlər bütün şagirdlərə bərabər baxmalıdır onlar arasında heç bir ayrı seçkilik olmamalıdır

**Məktəbdə tədris və öyrənməni əyləncəli və zövqlü edən nədir?**

Müəllim dərsi kifayət qədər başa saldıqda, və şagirdin bu fənnə olan marağını daha da canlandırdıqda, onun səhvini "sən səhv deyirsən" deyib məyus etmirdirsə onun səhvini başa ... salsa onda dərs kifayət qədər maraqlı olar.